33_27 IYUl-QARA.qxd 9/19/2024 9:50 PM Page 1

UNİKAL

№34 (2216) 20 sentyabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Ermənistanın sülhdən yayınma cəhdləri yenidən gərgin vəziyyət yarada bilər



Səh. 9

## Oqtay Əsədovun adı ətrafında yeni müəmmalar

*"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Milli Məclisin sabiq sədri Oqtay Əsədov haqqındadır. Qeyd edək ki, Oqtay Əsədov 2005-ci il dekabrın 2-dən 2020-ci il martın 10-dək (təxminən 15 il) Milli Məclisin sədri vəzifəsində çalışıb. 2000-ci ildə keçirilən növbədənkənar parlament seçkisində deputat mandatı qazansa da, sədr postuna seçilməyib. Oqtay Əsədov Yeni Azərbaycan Partiyasının 5 mart 2021-ci il tarixində keçrilən növbədənkənar VII qurultayında İdarə Heyətinə də düşməyib. Həmçinin 1 sentyabr 2024-cü il tarixli növbədənkənar parlament seçkilərində hakim partiya tərəfindən namizədliyi irəli sürülməyib.*

Səh. 8

## "Bazarı sakitləşdirmək istəyirlər ki, devalvasiya olmayacaq"



*REAL Partiyasının icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, gələn ilin dövlət büdcəsində sosial müdafiə sahəsinə ayrılan vəsaitin hansı istiqamətlərə xərclənəcəyindən, büdcədə neftin ixrac qiymətinin 70 dollardan götürülməsinin səbəblərindən və yaxın illərdə manatın məzənnəsinin necə dəyişə...*

Səh. 4

## "Ermənistan 2020-ci ildə baş verənlərdən nəticə çıxarmadı"



*"Vətən müharibəsində qələbə ilə Azərbaycan bölgədə yeni reallıq yaratdı". "Unikal" xəbər verir ki, bunu VI çağırış Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib. Onun sözlərinə görə, Ermənistan Vətən müharibəsi başa çatdıqdan sonra imzalanan üçtərəfli Bəyanat üzrə öhdəliklərini qətiyyən yerinə yetirmirdi...*

Səh. 5

## Xaricdə yaşayan azərbaycanlı alimlərin həmrəyliyi



*Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq damarlarında azərbaycanlı qanı axan hər kəs Azərbaycanın milli maraqlarının qorunmasında, inkişafında maraqlı olmalıdır. Dünyada yaşayan azərbaycanlıların həmrəyliyi, azərbaycançılıq ideologiyası ətrafında sıx birləşməsi xaricdə güclü Azərbaycan diasporunun yaranmasını təmin edən əsas şərtlərdəndir. Artıq iki gündür ki...*

Səh. 11

33_27 IYUl-QARA.qxd 9/19/2024 9:57 PM Page 2



# Elza Seyidcahan bu kanalları məhkəməyə verdi



***Əməkdar artist Elza Seyidcahan ATT və Baku TV-ni məhkəməyə verib.***

“Unikal” xəbər verir ki, buna səbəb müğənninin ”Tüpürcəyim baldır mənim” şeiri olub. Bu haqda Elza APA TV-yə müsahibəsində deyib: ”Bu şeirdə nə var ki? Efirdə gündəm üçün Elzanın adından deyirlər ki, ”tüpürüm sizin ağzınıza”.

ATV və Baku TV-yə məhkəmədən məktub gedib. Onları bağışlayaram, amma Anar müəllimi (Azərbaycan Yazıçılar Birliyinin sədri - red.) narahat ediblər. Buna görə də mən onları məhkəməyə verdim”.

# "Səməd sənə "qoca, kaftar" deyirdi" - Efirdə dava



***Əməkdar artist Bəsti Bəkirova mərhum Xalq artisti Səməd Səmədovla bağlı etiraflar edib.***

”Unikal” xəbər verir ki, ”Elgizlə izlə” proqramında qonaq olan müğənni S.Səmədovun onunla toya gedib, qonorarını vermədiyini söyləyib: ”Biz 4 ildən çox çalışdıq. 1996-cı ildən çalışırdıq. Biz pula görə ayrıldıq. Gəncədə toy danışmışdıq. Gətirib mənə qat-qat az verdi. Dedim ki, bu azdır. Dedi ki, olan budur, istəmirsən get. Səhər saat 4-ə kimi toy oxumuşdum. Amma danışdığımız məbləği vermədi. Mən də qəbul etmədim və getdim”.

B.Bəkirovanın sözlərinə proqramda qonaq olan Əməkdar artist Qorxmaz Əlili və müğənni Sevda Əliqızı etiraz edib. B.Bəkirova isə əsəbiləşərək efiri tərk edib.

Daha sonra studiyaya qayıdan Bəsti Sevdaya ”Səmədlə ayrılanda ona nələr dedin. Ona ”kaftar” belə deyirdin. O isə sənə ”qoca” deyirdi. Bir-birinizə dəfələrlə ”qoca, kaftar” dediniz. Bir verilişdə səni müdafiə belə edirdim. Bir-birinizə demədiyiniz söz qalmadı. Mən isə mədəni şəkildə ayrılmışdım.” sözlərini söyləyib.

# Elçindən Aydanla barışma iddilarına reaksiya



***Müğənni Elçin Cəfərov ”Xəzər axşamı” verilişində qonaq olub.***

Proqram zamanı sənətçinin keçmiş həyat yoldaşı Aydanın boşandıqdan sonra onun konsertində olduğu görüntülər nümayiş olunub.

Elçin aparıcı Mətanət Əliverdiyevanın ”Bir ara dedilər ki, barışmısınız” sözlərinə ”Çox xahiş edirəm, bu mövzunu bağlayaq. Danışmaq istəmirəm” cavabını verib.

Qeyd edək ki, Aydan Xalq şairi Sabir Rüstəmxanlının qızıdır. Elçin və Aydan cütlüyü 2016-cı ilin aprelində ailə qurub. Onların birgə nikahdan bir oğlan övladları var.

# Rozanın klipini yutubdan sildirdilər



***Müğənni Roza Zərgərlinin klipi yutubdan silinib.***

“Unikal” olay.az-a istinadən xəbər verir ki, bu barədə sənətçi özü məlumat yayıb. O bildirib ki, ”Milli mashup” kimi təqdim etdiyi layihə kanaldan götürülüb:

”Elçinlə son təqdim etdiyimiz mahnı hit olduğu üçün əlinizdən gələni etdiniz. Kanalımıza spam atdınız, şikayət etdiniz. Kanaldan klip silindi. Bir neçə saat sonra Elçin Məhərrəmovun kanalında sevənlərimiz izləyə biləcək. Siz belə etdikcə, mən qızışıram. Çünki qırmızı görürəm. Sizə bu, lazımdır? Roza qan görəndə qorxmur, əksinə qızışır”.

# “Səhnə geyimlərimi anam tikib” - Faiq Ağayev



**”İlk səhnə geyimlərimi anam tikib”.**

“Unikal” olay-a istinadən bildirir ki, bu sözləri Xalq artisti Faiq Ağayev qonaq olduğu ”Xəzər axşamı” verilişində deyib.

Sənətçi bildirib ki, 36 il əvvəl anası Səfiyyə xanım onun səhnə geyimlərini tikib: ”Anamın peşəsi geyim üzrə texnoloqdur. Mənim 1988-1992-ci ilə kimi anam səhnə geyimlərimi tikirdi. Anam bu işin peşəkarı və bilicisidir. Səhnədəki, ilk geyimlərimi də anam hazırlayırdı. O sonradan mənim zülmümə dözə bilmədi. Anam söylədi ki, get kimə tikdirirsən tikdir”.

# Vüsalə: "Heç kimin şərəfinə..."



***Aparıcı Vüsalə Əlizadə sosial şəbəkədə yazılan tənqidlərə cavab verib.***

“Unikal” axşam.az-a istinadən xəbər verir ki, o, ”İncə səhər” verilişində sənət adamları ilə bağlı süjetləri tənqid edənlərə səslənib. Vüsalə bildirib ki, yayımlanan bütün özəl məlumatlardan qonaqların xəbəri olur: ”Verilişi açandan məqsədimiz bu idi ki, maraqlı məqamlar təqdim edək. Bura gələn qonaqların həyatını bizim komanda həmişə araşdırır. Çalışırıq ki, kimsədən eşitmədiyinizi çatdıraq. Niyə bu insanları çağırıb narahat edən problemli tərəfləri verək? Biz qonağın həmin məqamlarına özü istəsə toxunuruq. Heç kimin qüruruna, şərəfinə dəyib incitmək məqsədimiz yoxdur. Gördüyünüz hər şeydən müğənnilərin xəbəri olur. Onların istədiyi qədər həyatlarına toxunuruq. Bəzi tamaşaçılar bildi, bilmədi irad tutur. Bir proqramın hazırlanması insanın enerjisini alır”.

33_27 IYUI-QARA.qxd 9/19/2024 9:59 PM Page 3






# Səhiyyə Nazirliyindən özəl tibb müəssisələrinə xəbərdarlıq

***Səhiyyə Nazirliyi Azərbaycanda fəaliyyət göstərən özəl tibb müəssisələrinə xəbərdarlıq edib.***

"Unikal"ın məlumatına görə, nazirliyinin yaydığı məlumatda "Dərman vasitələri haqqında" qanunun 14-1.1-ci maddəsinə əsasən bioloji aktiv qida məhsullarının (BAQM) reseptə yazılmasının qadağan olunduğu bildirilib.

Qeyd olunub ki, həmin qanunun 14-1.3-cü maddəsinə əsasən, bioloji aktiv qida məhsullarının üzərində və istifadə təlimatlarında (içlik vərəqlərində) əmtəə nişanı adının yazıldığı hər yerdə əmtəə nişanı adının altında onunla eyni ölçüdə və şriftdə olan ağ fonda qara rəngli aydın, seçilən, qalın və böyük hərflərlə, silinməsi mümkün olmayan tərzdə çap olunmuşan "DƏRMAN VASİTƏSİ DEYİLDİR!" sözlərinin yazılması məcburi xarakter daşıyır.

"Yuxarıda qeyd olunan sahədə qanunvericiliyin tələblərinə riayət olunmasına və neqativ hallara səbəb ola biləcək amillərin aradan qaldırılması məqsədilə özəl tibb müəssisələrində resept yazmaq hüququna malik tibb işçiləri tərəfindən buraxılan reseptlərdə bioloji aktiv qida məhsullarının yazılmasının qarşısının alınması üçün Analitik Ekspertiza Mərkəzinin səlahiyyətləri çərçivəsində maarifləndirici, preventiv və qanunvericiliklə müəyyən olunmuş inzibati tədbirlərin görülməsi nəzərdə tutulur. Nəzərinizə çatdırırıq ki, elektron resept sisteminə keçid ilə əlaqədar özəl tibb müəssisələrində və aptek təşkilatlarında plan üzrə və plandankənar yoxlamaların aparılması zamanı həmin müəssisələrdə resept yazmaq hüququna malik tibb işçiləri tərəfindən yazılan reseptlərdə bioloji aktiv qida məhsullarının yazılması, həmçinin belə reseptlər əsasında BAQM satışı hallarının aşkar edilməsi üçün nəzarət gücləndiriləcək".

# Kərim Vəliyev İtaliyaya getdi

***Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin İtaliya Respublikasına rəsmi səfəri başlayıb.***

MN-dən "Unikal"a verilən məlumata görə, səfər çərçivəsində Azərbaycan Ordusunun Baş Qərargah rəisi İtaliyanın hərbi rəhbərliyi ilə bir sıra görüşlər keçirəcək və müdafiə sənayesi şirkətini ziyarət edəcək.

# Polşada azərbaycanlı tələbə vəfat etdi

***Polşada təhsil alan azərbaycanlı tələbə vəfat edib.***

"Unikal" xəbər verir ki, bu barədə sosial şəbəkədə məlumat paylaşılıb. Krakov şəhərində yaşayan X.Cabbarlının hansı səbəbdən vəfat etməsi barədə məlumat qeyd edilməyib.

O həmçinin, "Odlar Yurdu" Gənclər İctimai Birliyinin İdarə Heyətinin sədri olub.

# Oqtay Əsədovun adı ətrafında yeni müəmmalar

## Sabiqlərin izi ilə: sabiq spikerlə bağlı cavabını gözləyən suallar yaranıb



***"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Milli Məclisin sabiq sədri Oqtay Əsədov haqqındadır.***

Qeyd edək ki, Oqtay Əsədov 2005-ci il dekabrın 2-dən 2020-ci il martın 10-dək (təxminən 15 il) Milli Məclisin sədri vəzifəsində çalışıb. 2000-ci ildə keçirilən növbədənkənar parlament seçkisində deputat mandatı qazansa da, sədr postuna seçilməyib. Oqtay Əsədov Yeni Azərbaycan Partiyasının 5 mart 2021-ci il tarixində keçrilən növbədənkənar VII qurultayında İdarə Heyətinə də düşməyib. Həmçinin 1 sentyabr 2024-cü il tarixli növbədənkənar parlament seçkilərində hakim partiya tərəfindən namizədliyi irəli sürülməyib.

Hazırda 69 yaşı olan sabiq spikerin xüsusilə 1996-2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004-2005-ci illərdə "Azərsu" Səhmdar Cəmiyyətinin prezidenti vəzifələrində çalışarkən sürətlə varlandığı, ölkənin ən zəngin oliqarx-məmurlarından birinə çevrildiyi məlumdur. Adı çoxsaylı korrupsiya iddialarında hallandığından Əsədovun böyük sərvət sahibi olması təəccüblü deyildi, lakin həm reputasiyası, həm də siyasi bilikləri və təcrübəsi səbəbindən Milli Məclisin sədri seçilməsi istər cəmiyyətdə, istərsə də mediada gözlənilməz qarşılanmışdı.

Oqtay Əsədov hazırda yalnız Azərbaycan Tennis Federasiyasına başçılıq edir. Əslində isə sabiq spiker hazırda vaxtının çoxunu öz biznes imperiyasının idarəçiliyinə yönəldib. Onun Azərbaycan, Rusiya, Türkiyə və Böyük Britaniyada biznesinin olduğu iddia edilir.

Son vaxtlar isə Əsədovla bağlı bəzi suallar ortaya çıxıb. Əvvəla, Milli Məclisin keçmiş sədrindən uzun müddətdir xəbər yoxdur. Xüsusilə spiker kürsüsündən sıravi deputat kreslosuna düşürülən Oqtay müəllim parlamentin iclaslarında da gözə dəymirdi. Bu isə ilk növbədə onun harada olduğuna dair sual doğururdu.

Bir müddət öncə modern.az yazıb ki, Əsədova yaxın deputatlardan əldə olunan məlumata görə, o, hazırda Azərbaycanda deyil. Onun indi Türkiyədə olduğu bildirilib. Amma ora nə məqsədlə gedib, nə vaxt geri dönəcək, bu gediş həmişəlikdir ya yox, keçmiş həmkarları heç nə bilmirlər. Hətta onun telefon nömrələrini də dəyişdiyi, deputatların zənginə belə cavab vermədiyi qeyd edilib. Əsədovun köməkçisi də onunla bağlı suallara cavab verə bilməyəcəyini vurğulayıb.

Bu isə Əsədovun Azərbaycanı biryolluq tərk edib-etmədiyinə dair sualın yaranmasına səbəb olub. "Unikal" məlumatlı mənbələrdən öyrənib ki, sabiq spiker yay aylarını ölkədən kənarda keçirib. Onun əsasən Türkiyədə istirahət etdiyi, eyni zamanda bu ölkədəki biznesinin genişləndirilməsi ilə yaxından maraqlandığı deyilir.

Bir neçə gün öncə isə Oqtay Əsədovun həyat yoldaşı Əsədova Zemfira Adil qızının işdən çıxarıldığına dair xəbər yayılıb. Qaynarinfo-nun əldə etdiyi məlumata görə, bu barədə elm və təhsil naziri Emin Əmrullayev müvafiq əmr imzalayıb. Zemfira Əsədova öz ərizəsi ilə 175 nömrəli körpələr evi-uşaq bağçasının müdiri vəzifəsindən azad edilib.

Bir müddət əvvəl Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi tərəfindən sözügedən bağçada yoxlamalar aparılıb və bəzi pozuntular aşkarlanıb. Zemfira Əsədova yoxlamalardan sonra öz ərizəsi ilə vəzifəsindən gedib.

175 nömrəli körpələr evi-uşaq bağçasına hələlik müdir təyin edilməyib.

Qeyd edək ki, Zemfira Əsədova sözügedən bağçada 20 ildən çox müdir olub. Hətta 2017-ci ildə 175 nömrəli körpələr evi-uşaq bağçasının ("Şənlik" uşaq bağçası) 30 illiyinə həsr edilmiş təmtaraqlı tədbir də keçirib.

"Unikal"ın əldə etdiyi məlumatda isə Z.Əsədovun işdən çıxmaqla bağlı könüllü şəkildə ərizə yazmadığı, bunun ona tövsiyə edildiyi bildirilir. İddialara görə, həmin tövsiyənin kökündə sözügedən bağçada aşkarlanan pozuntularla bağlı məsələnin daha da arzuedilməz hal almaması dayanıb.

Digər tərəfdən, sabiq spikerin bu prosesə müdaxilə etmək istəməməsi də maraq doğurur. Belə iddialar var ki, Əsədov əvvəlki təsir imkanlarını itirdiyindən yaxşı agahdır, ona görə də nəinki həyat yoldaşının işdən azad edilməməsi üçün təşəbbüs göstərməyib, hətta Oqtay müəllim özünə yaxın şirkətlərin son vaxtlar iri məbləğli tenderlərdə qalib elan olunmasından ötrü də əvvəlki kimi müxtəlif nazirliklərə ağız açmamağı üstün tutur. Hətta bu şirkətlərdən biri - "Arash Medical Company" Qapalı Səhmdar Cəmiyyəti barəsində bu yaxınlarda Azərbaycan Mərkəzi Bankı inzibati protokol tərtib etmişdi. Protokol İnzibati Xətalar Məcəlləsinin 430.4-cü (Avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində müəyyən edilmiş müddətlərdə müvafiq mallar idxal edilmədikdə, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmamasına görə vəzifəli şəxslər inzibati xətanın bilavasitə obyekti olmuş valyuta vəsaiti məbləğinin on faizindən iyirmi faizinədək məbləğdə, hüquqi şəxslər inzibati xətanın obyekti olmuş valyuta vəsaiti məbləğinin iyirmi faizindən otuz faizinədək məbləğdə cərimə edilir) maddəsinə əsasən yazılmışdı. Hərçənd adıçəkilən şirkət ötən il, yəni Əsədov ən azından hələ deputat olaraq qaldığı dövrdə ümumilikdə 27 tender udmuşdu. Bu tenderlərin cəmi məbləği isə 4,5 milyon manata yaxın idi.

Lakin cari ildə "Arash Medical Company"nin bu sayda iriməbləğli tender udduğunu söyləmək olmur. Elə bu da Oqtay Əsədovun yalnız siyasi karyerası üçün deyil, elə biznesi üçün də parlaq günlərin geridə qaldığını göstərir və əlavə suallara yol açır...

**Sənan Mirzə**

33_27 IYUI-QARA.qxd 9/19/2024 10:01 PM Page 4



# Ermənistanın sülhdən yayınma cəhdləri yenidən gərgin vəziyyət yarada bilər

## Səməd Seyidov: "Ermənilər bizimlə oyun oynamasınlar, təkliflərimizə vaxtında cavab versinlər"

***Ermənistan tərəfi əgər sülh müqaviləsinin irəli aparılmasında ciddidirsə və bu məsələdə həqiqətən maraqlıdırsa, təkliflərə 70 gün ərzində cavab verilməsi özlüyündə müəyyən suallar doğurur. Yəni, sülh müqaviləsinin əksər bəndləri üzrə tərəflər arasında müəyyən razılıqlar vardır, amma hələ də aparılmalı olan işlər göz qarşısındadır. Bu, ilk növbədə, Ermənistanın Konstitusiyası ilə əlaqədar olan məsələlərdir.***

”Unikal” xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə müsahibəsində deyib.



“Prezident İlham Əliyev də dəfələrlə vurğulayıb ki, Ermənistanın Konstitusiyasında və digər normativ hüquqi sənədlərində Azərbaycana qarşı ərazi iddialarına tam şəkildə son qoyulmalıdır. Ermənistanın Konstitusiyasına dəyişikliyi məsələsi onun daxili işi sayılsa da, orada Azərbaycana qarşı ərazi iddialarının olması, təbii ki, Azərbaycanı narahat edən bir məqamdır”, - deyə Hikmət Hacıyev vurğulayıb.

Sülh müqavilələrinin hər hansı bir hökumətlə deyil, xalqla imzalandığını diqqətə çatdıran Azərbaycan Prezidentinin köməkçisi əlavə edib: “Bizim də gözləntimiz ondan ibarətdir ki, sülh müqaviləsinə nail olunması üçün Ermənistan Konstitusiyasında edilməli olan dəyişikliklər referendum yolu ilə həyata keçirilməlidir. Erməni xalqı da nəhayət ki, öz mövqeyini bildirərək məlum Miatsum, yəni, Qarabağı Ermənistanla birləşdirmək kimi utopik iddialarına, bütün ərazi iddialarına, irtica siyasətinə son qoyulduğunu və Azərbaycanla sülh şəraitində yaşamaq niyyətini konstitusion əsasda ifadə etməlidir və ümumxalq referendumunda öz mövqeyini bildirməlidir. Hesab edirik ki, bundan sonra proses irəliyə doğru daha sürətlə gedə bilər”.

Mövzu ilə bağlı ”Unikal”a açıqlama verən Milli Məclisin VI çağırış deputatı, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov deyib ki, Hikmət Hacıyevin dedikləri hamısı reallıqdır: ”Ermənistan sözdə bir şeyi deyir, əməldə isə tamamilə başqa cür addım atır. Ona görə də, biz real sülh istiqamətində atılacaq addımlarla bağlı nə niyyəti, nə söhbəti, nə də hərəkəti görmürük. Çox şey haqqında danışmaq olar. Məsələn, Minsk qrupu da 30 il ərzində Azərbaycanın torpaqlarının işğal altında olması ilə bağlı, guya, hansısa ”fəaliyyət” göstərirdi. Əslində isə, heç bir fəaliyyət yox idi. Onların əsl məqsədi bu işğalı əbədiləşdirmək idi. Sülh müqaviləsinin imzalanması ilə Ermənistanın ərazi iddialarından əl çəkməsi və Minsk qrupunun ləğv edilməsi bir-biri ilə birbaşa bağlı olan məsələlərdir. Biz heç nəyi eləbelə gündəmə gətirmirik. Bilirik ki, bu məsələlər real, özü də hökumət səviyyəsində yox, referendum səviyyəsində həll olunmasa, həmin iddiaları sabah başqa bir dövlət Azərbaycana qarşı istifadə edə bilər. Biz bunu dəfələrlə görmüşük”, - deyə o qeyd edib.

Səməd Seyidov Zəngəzur dəhlizinin açılması məsələsi ilə bağlı da fikirlərini bölüşüb: ”Elə Zəngəzur dəhlizi ilə bağlı məsələ göz qabağındadır. 2020-ci il 10 noyabr bəyanatında konkret olaraq yazılmışdı ki, Zəngəzur dəhlizi açılacaq. Sonra nə oldu? Ermənilər müxtəlif bəhanələrlə bu dəhlizi açmaqdan imtina etməyə başladılar. Hansısa şərtləri dilə gətirdilər. Əslində isə, bütün bu hərəkətlər Ermənistanın 10 noyabr bəyanatının bəndlərini kobud şəkildə pozduğunun sübutudur. Biz artıq bu təcrübədən keçmişik. Çox gözəl bilirik ki, qonşu ölkə kimdir, onun arxasında kimlər dayanır, niyyətləri nədir. Siyasətimiz isə böyükdür və birmənalıdır.

Sülh müqaviləsinin imzalanması Ermənistanın üzərinə düşən məsələlərin həlli ilə birbaşa bağlıdır. Yəni, onlar Azərbaycana qarşı olan ərazi iddialarından əl çəkməli, Minsk qrupunun ləğv olunması istiqamətində iş aparmalı və vaxtı-vaxtında Azərbaycanın təkliflərinə cavab verməlidirlər. Bizimlə oyun oynamamalıdırlar”.

Onu da nəzərə çatdıraq ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan sülh sazişində razılaşdırılmayan bəndlərin olmasıyla bağlı fikirlər səsləndirməsi də sülhdən yayınma üçün bəhanələrdən biri sayıla bilər. Politoloq Fuad Abbasov hesab edir ki, Ermənistan hər dəfə müxtəlif səbəb göstərərək sülh müqaviləsindən və danışıqlardan boyun qaçırır. Analitik vurğulayıb ki, söhbət sadəcə Mirzoyandan, Paşinyandan getmir, keçmiş hakimiyyətlərin dönəmində də İrəvan axıradək getmir, bir müddətdən sonra nədənsə imtina edirdilər: ”Ermənistan hökuməti mütəmadi sülhdən danışsa da, ”müqavilənin 80 faizi hazırdır, sabah sülhü imzalamağa hazırıq” kimi bəyanatlar səsləndirsə də, əslində vasitəçisiz, yəni ikitərəfli qaydada müzakirələri davam etdirməyə hazır deyil. Son günlər baş verən bir neçə hadisə bunu isbatlayır. Guya Rusiyaya üz çevirdikləri iddia olunsa da, hələ də İrəvan hökumətinin bir qulağı Qərbdə, bir qulağı Moskvadadır. İndi də ortalığa İran çıxıb. Tehran da sülhə, Zəngəzur dəhlizinin açılmasına qarşı çıxır. Yəni Ermənistana hər zaman nəsə mane olur”.

Müsahibin sözlərinə görə, problem ondadır ki, İrəvan hakimiyyəti sərbəst, müstəqil siyasi iradə sahibi deyil. Öz qərarlarını özləri verə bilmirlər: “Ermənistanda rejim, hakimiyyət dəyişsə də, qeyri-müəyyənlik və tərəddüdlü yanaşma dəyişməyib. Fərqli nəticə olacağını düşünmürəm. İndiyədək böyük dövlətlərin diktəsi ilə oturub-duran Ermənistan bundan sonra da eyni müstəvidə hərəkət edəcək. Azərbaycan və Türkiyə ilə normal münasibətlərin formalaşması, qalıcı sülhün əldə olunması üçün ilk növbədə Ermənistanın konstitusiyası dəyişməli, ərazi iddialarına son qoyulmalıdır. Əks halda sülh və müzakirələrin irəliləməsi imkansızdır”.

***Murad İbrahimli***



# Qərbi Azərbaycan İcması dünya dövlətlərinə çağırış etdi

***Qərbi Azərbaycan İcması bütün dövlətləri Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıdışını dəstəkləməyə çağırıb.***

“Unikal”ın xəbərinə görə, bu barədə İcmanın yaydığı bəyanatda qeyd edilib.

Bildirilib ki, bu gün Azərbaycan Respublikasının Qarabağ bölgəsində həyata keçirilmiş antiterror tədbirlərindən bir il ötür: ”Bu tədbirlə Azərbaycan otuz ildən artıq davam edən haqsızlığa son qoyub və ölkənin suverenliyini tam bərpa edib. Bu qətiyyətli addım Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı uzunmüddətli qəsdini sona çatdıraraq beynəlxalq hüququn aliliyini təmin edib. Beləliklə, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə başlanmış sistemli mübarizə, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla tamamlanıb. Otuz il davam edən və tam qələbə ilə nəticələnən bu mübarizə, Azərbaycanda xalq və dövlət arasında birliyin təcəssümüdür”.

Sənəddə vurğulanıb ki, Azərbaycanın atdığı addımlar təkcə özünün milli maraqlarına xidmət etməyib, həm də beynəlxalq ədalət prinsiplərini müdafiə edib. Bu, dünyanın xaos və ədalətsizliklərlə dolu olduğu bir dövrdə haqqın və ədalətin nadir təntənəsidir.

”Təəssüf ki, bəzi xarici qüvvələr bu nailiyyətləri mənfi işıqda göstərməyə və ikiüzlülük yolu ilə yenidən gərginlik yaratmağa cəhd edirlər. Biz bu qüvvələrdən beynəlxalq hüquq normalarına hörmət etməyi və regionda davamlı sülhə mane olmamağı tələb edirik. Biz bütün dövlətləri ədalətin bu şanlı qələbəsini alqışlamağa və tarixin bu ağrılı səhifəsinin ləyaqətlə bağlanması üçün Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıdışını dəstəkləməyə çağırırıq”, - bəyanatda qeyd edilib.

# AP Rusiya ərazisinə hücumlara icazə verən qətnaməni qəbul etdi



***Avropa Parlamenti (AP) Ukrayna Silahlı Qüvvələrinə Rusiya ərazisinə zərbələr endirilməsinə icazə verilməsini tələb edən qətnamə qəbul edib.***

”Unikal” xəbər verir ki, bu barədə Avropa Parlamentinin mətbuat xidməti məlumat yayıb.

Qeyd olunur ki, qətnamə ilə bağlı qərar cümə axşamı Strasburqda keçirilən plenar iclasda səs çoxluğu ilə qəbul edilib. Qətnaməni 425 avropalı deputat dəstəkləyib, 131 deputat əleyhinə səs verib, daha 63 deputat isə bitərəf qalıb.

”Avropa Parlamenti üzv dövlətləri Rusiya ərazisindəki qanuni hərbi hədəflərə qarşı Ukraynaya tədarük edilən Qərb silah sistemlərinin istifadəsinə qoyulan məhdudiyyətləri dərhal aradan qaldırmağa çağırır”, - bəyanatda deyilir.

Deputatlar vurğulayırlar ki, mövcud məhdudiyyət “Ukraynanın özünümüdafiə hüququnu tam həyata keçirməsinə mane olur” və ölkəni həssas edir.

***Gülayə Mecid***

33_27 IYUI-QARA.qxd 9/19/2024 10:01 PM Page 5



# İlham Əliyev oğlu ilə birlikdə Ağdamda



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev sentyabrın 19-da Ağdam rayonunun Eyvazxanbəyli kəndinin təməlqoyma mərasimində iştirak ediblər.***

"Unikal" xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, kəndin layihələndirilən ümumi ərazisi 300 hektara yaxındır. Baş plana əsasən, bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Şişpapaqlar, Kosalar və Eyvazxanbəyli kəndləri ilə birlikdə layihələndirilib.

Eyvazxanbəyli kəndində 4038 nəfərin məskunlaşdırılması planlaşdırılıb. Bu məqsədlə 1091 fərdi evin tikilməsi nəzərdə tutulub.

Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 88,3 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə 1563 nəfərin köçürülməsi üçün 427 fərdi evin inşası planlaşdırılır. İnşa ediləcək evlər iki, üç, dörd və beş otaqlı olacaq.

# Prezident Ağdam, Xankəndi və Şuşada açılışlar etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam rayonunun Kəngərli və Xıdırlı kəndlərində aparılan bərpa işləri ilə tanış olub.***

Daha sonra dövlət başçısı Ağdam Sənaye Parkında müxtəlif təyinatlı ayaqqabıların istehsalı zavodunun, Elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının istehsalı zavodunun, Avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodunun, Divar kağızları istehsalı zavodunun, Havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı zavodunun və Dam örtükləri istehsalı zavodunun açılışlarında iştirak edib.



Həmçinin, Prezident İlham Əliyevin iştirakı ilə Ağdam şəhərində "Aghdam City Hotel"in açılışı olub.

Bundan başqa, dövlət başçısı Ağdam şəhərində "İmarət" stadionunun təməlini qoyub.

Daha sonra İlham Əliyev Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunda aparılan işlərlə tanış olub.

Azərbaycan lideri Xankəndi şəhərinə də səfər edib. "Bulud" hotelində aparılan təmir-bərpa işləri ilə tanış olub, Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbin və 1 nömrəli körpələr evi-uşaq bağçasının təmirdən sonra açılış mərasimlərində iştirak edib.

Prezident İlham Əliyev Xankəndi Dövlət Dram Teatrının binasında görüləcək işlərlə və Xankəndi şəhərinin Zəfər meydanında Konqres Mərkəzinin tikintisi ilə tanış olub.

Dövlət başçısı Şuşaya da səfər edib. İlham Əliyev bərpadan sonra Üzeyir Hacıbəylinin ev-muzeyinin və Şuşada Bayraq Meydanının açılışında iştirak edib.

# Azərbaycanda Dövlət Suverenliyi Günü təsis edildi

***Azərbaycanda Dövlət Suverenliyi Günü təsis edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncama əsasən, hər il sentyabrın 20-si Azərbaycanda Dövlət Suverenliyi Günü kimi qeyd ediləcək.

# Azərbaycanın Baş Qərargah rəisi İtaliyanın müdafiə naziri ilə görüşdü

***İtaliya Respublikasında rəsmi səfəri çərçivəsində müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev İtaliya Respublikasının müdafiə naziri cənab Quido Krosetto ilə görüşüb.***

MN-dən "Unikal"a verilən məlumata görə, tərəflər ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, habelə qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

Görüşdə Azərbaycan Respublikasının İtaliya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Rəşad Aslanov da iştirak edib.



# Muxtar Babayev COP29-la bağlı BMT-nin xüsusi məsləhətçisi ilə görüşdü



***Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev BMT-nin Qaçqınlar üzrə Ali Komissarının İqlim fəaliyyəti üzrə xüsusi məsləhətçisi Endryu Harper ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüş zamanı bu ilin noyabr ayında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

# EMTA və MEDİA-nın əməkdaşlığı ilə seminar keçirilib

***Sentyabrın 19-da Enerji Məsələlərini Tənzimləmə Agentliyi (EMTA) və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) birgə təşkilatçılığı ilə energetika sahəsi üzrə ixtisaslaşmış jurnalistləri bu sahə ilə əlaqəli qanunvericilikdə nəzərdə tutulmuş terminlərlə, eləcə də yeni qaydalarla tanış etmək məqsədilə seminar keçirilib.***

Seminarı giriş sözü ilə açan EMTA-nın İdarə Heyətinin sədri Samir Axundov ölkəmizdə genişmiqyaslı enerji layihələrinin həyata keçirildiyini bildirib. O, dünyada ənənəvi enerji resurslarının bərpaolunan enerji resursları ilə əvəzlənməsi prosesinin müasir dövrün əsas prioritetlərindən biri olduğunu diqqətə çatdırıb. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyini qeyd edən İdarə Heyətinin sədri bu ilin noyabr ayında Azərbaycanın vac-




ib qlobal tədbirə - COP29-a ev sahibliyi edəcəyini xatırladaraq Azərbaycanın təbliğində, aparılan islahatların həm ölkə, həm də beynəlxalq ictimaiyyətə çatdırılmasında media nümayəndələrinin əhəmiyyətli rolunun olduğunu deyib.

Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli bildirib ki, MEDİA səhəvi jurnalistikanın inkişafının stimullaşdırılması məqsədilə müxtəlif qurumlarla əməkdaşlıqda bir sıra təlimlər, seminarlar və digər formatda tədbirlər təşkil edir. O, EMTA-nın bu istiqamətdə MEDİA ilə əməkdaşlığını və sözügedən seminarın təşkilini ümumilikdə energetika sahəsi üzrə ixtisaslaşan jurnalistlərin peşəkar fəaliyyətinə müsbət təsir göstərəcək addım kimi qiymətləndirib.

Seminarda EMTA-nın Enerji sahəsində liberallaşdırma və investisiyaların cəlb edilməsi şöbəsinin müdiri Elmar Güləliyev və Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (BOEMDA) Bərpaolunan enerji mənbələri ərazilərinin inkişafı şöbəsinin müdiri Fəqan Abdurəhmanov "Azərbaycan Respublikasının elektroenergetika sektoruna baxış və "yaşıl enerji"yə keçid", EMTA-nın Enerji tənzimləmə və monitorinq departamentinin direktoru Pərviz Əliyev isə "Tikinti obyektlərinin elektrik və qazpaylayıcı şəbəkələrə qoşulması" mövzusunda təqdimatlarla çıxış ediblər.

Sonda media nümayəndələrinin sualları cavablandırılıb, maraq doğuran məsələlər ətrafında geniş müzakirə aparılıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# "Paşinyanın yeni Konstitusiya yazmaq qərarı var" - Erməni nazir

***Sentyabrın 19-da Ermənistanda Konstitusiya İslahatları Şurasının növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin Ədliyyə Nazirliyi məlumat yayıb.

Ədliyyə naziri Qriqor Minasyan qeyd edib ki, Nikol Paşinyanın yeni Konstitusiya yazmaq qərarı var, şura üzvləri buna qarşı çıxmayıb.

O vurğulayıb ki, sabit siyasi çoxluğun tənzimlənmədən imtina etmək istəyi var, lakin bunu bütün Konstitusiyaya diaqnostikadan sonra etmək lazımdır. Şura Konstitusiyasın 89-cu maddəsinin 3-cü hissəsi ilə müəyyən edilmiş sabit siyasi çoxluq yaratmaq üçün konstitusiya tələbinin aradan qaldırılması təklifinin təsdiqinə səs verib.

***Ağarza Elçinoğlu***

# Azərbaycan buna görə BRİKS-ə müraciət etdi - Eldar Əzizov

***Azərbaycan dünyada baş verən mürəkkəb proseslər şəraitində qarşılıqlı əlaqə və əməkdaşlıq zərurətindən irəli gələrək BRİKS-ə rəsmi müraciət edib.***

"Unikal"ın report-a istinadən məlumatına görə, bunu Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Moskvada keçirilən "Bulud şəhərləri. BRİKS şəhərlərinin gələcəyi haqqında forum" çərçivəsində "Gələcəyin xəritəsi. Texnoloji inkişafın lider şəhərlərinin həlləri və strategiyaları" plenar sessiyasında bildirib.

"Azərbaycan BRİKS-ə daxil olmaq üçün rəsmi müraciət edib. Bu, bizim üçün çox əhəmiyyətlidir. Çünki planetdə mürəkkəb iqlim prosesləri gedir, bununla yanaşı, birlik və əməkdaşlıq prioritet məsələyə çevrilir", - o qeyd edib.

E.Əzizov Bakının sürətlə inkişaf etdiyini vurğulayıb:

"Şəhər sürətlə inkişaf edir. Bakının inkişafı üçün çoxsaylı planlar var. Təkcə son 5 ildə 400-ə yaxın park sıfırdan bərpa edilib. Həmçinin, şəhərin yeni Baş planı qəbul edilib".

33_27 IYUl-QARA.qxd 9/19/2024 10:02 PM Page 6



# Azərbaycandan ATƏT və Avropa Şurası rəhbərlərinə açıq məktub

***Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçiləri ATƏT və Avropa Şurası rəhbərlərinə açıq məktub ünvanlayıblar.***

"Unikal" məktubu təqdim edir: "ATƏT-in fəaliyyətdə olan sədri cənab İan Borqa və Avropa Şurasının Baş katibi cənab Alən Berseyə.

Biz Azərbaycan vətəndaş cəmiyyətinin təmsilçiləri olaraq sizə üz tuturuq ki, 36 ildir Ermənistandakı tarixi yurd yerlərindən, şəxsi evlərindən zorla çıxarılmış, qaçqın vəziyyətinə düşmüş yüz minlərlə azərbaycanlı hələ də İrəvana, Göyçəyə və digər tarixi məkanlara - Qərbi Azərbaycana qayıda bilmir.




Tarixən azərbaycanlıların yaşadıqları Ermənistanda azərbaycanlılara məxsus maddi və mədəni irsin silinməsinə yönəlmiş sistemli kampaniya aparılıb. Bu qəsdən məhvetmə onilliklərdir davam edir. Ürək ağrısı ilə qeyd edirik ki, 1870-ci ildə Ermənistan ərazisində qeydiyyata alınan 269 məsciddən bu gün yalnız biri qalıb. Bundan başqa, azərbaycanlılara məxsus yüzlərlə qəbiristanlıq da sistemli şəkildə məhv edilib.

Ermənistan Respublikasının paytaxtı İrəvan şəhəri vaxtilə Şəhər, Dəmirbulaq və Təpəbaşı kimi rayonlara bölünmüşdü. Azərbaycanlılar bu ərazilərdə şəhərin ilkin formalaşmasından etibarən 20-ci əsrin sonlarına qədər yaşayıblar. Azərbaycanlılar tərəfindən tikilən və məskunlaşılan Təpəbaşı məhəlləsinin adı sonradan dəyişdirilərək "Kond" adlandırılıb. Bu məhəllə Ermənistanda azərbaycanlılara məxsus mədəni irsin sağ qalan azsaylı nümunələrindən biridir. Lakin çox təəssüf ki, Ermənistan hökumətinin Azərbaycan xalqının mədəni irsinin silinməsi istiqamətində apardığı sistemli işin tərkib hissəsi olaraq qeyd edilən Təpəbaşı məhəlləsinin tamamilə dağıdılması planlaşdırılır.

Bu ilin mayında biz - Azərbaycan vətəndaş cəmiyyətinin təmsilçiləri UNESCO-nun Baş direktoru xanım Odri Azuleyə açıq məktub ünvanlayaraq xahiş etdik ki, Təpəbaşı məhəlləsinin dağıdılmasının qarşısını almaq üçün təsirli tədbirlər görülsün, əraziyə faktaraşdırıcı missiya göndərilsin. Biz dağıntıların dayandırılması və bərpası üçün beynəlxalq hüququn normaları və mexanizmləri çərçivəsində UNESCO ilə dialoqa, qarşılıqlı fəaliyyətə hazır olduğumuzu bəyan etdik, UNESCO-nu dünya mədəni irsinin unikal nümunəsi kimi Təpəbaşı məhəlləsini öz mühafizəsinə götürməyə çağırdıq, monitorinq işlərində UNESCO ilə sıx işləməyə hazır olduğumuzu bildirdik. Ancaq bu müraciətimizə nə UNESCO-dan cavab gəldi, nə də insan hüquqlarının qorunmasını rəhbər tutduğunu elan etmiş Avropa Şurasından, ATƏT-dən bu məsələ barədə hər hansı narahatlıq bəyanatını görmədik.

Azərbaycan xalqının Ermənistan ərazisindəki maddi irsinin dəyərli nümunələrindən olan İrəvan qalası, Xan sarayı, Abbas Mirzə məscidi və bir çox başqa abidələr tamamilə dağıdılıb. İrəvan xanı Hüseyn Əli Xan tərəfindən 18-ci əsrdə tikilmiş Göy məscidin isə tarixi təhrif edilərək guya başqa xalqa məxsus məscid kimi təqdim olunur.

Ermənistan tərəfindən azərbaycanlılara məxsus mədəniyyət abidələrinin dağıdılması bir çox beynəlxalq konvensiyaları, o cümlədən İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, Ümumdünya İrs Konvensiyasını, Qeyri-maddi mədəni irsin qorunması və İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiyanı kobud şəkildə pozur.

Ermənistanın etnik təmizləmə siyasəti Azərbaycanın qeyri-maddi mədəni irsinə ciddi ziyan vurub. Məsələn, UNESCO tərəfindən Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs siyahısına salınmış Azərbaycan aşıq sənətinin əsas məktəblərindən olan Göyçə aşıq məktəbi hazırda doğma köklərindən uzaq düşüb. Ermənistan tanınmış azərbaycanlı sənətkar Aşıq Ələsgərin doğulduğu Göyçə mahalındakı abidəsini və məzarını dağıdıb. Bu, Azərbaycan xalqına qarşı nümayişkaranə təhqirdir.

Ermənistan tərəfindən Azərbaycanın mədəni irsinin davamlı şəkildə məhv edilməsi bizim mədəni irsdən istifadə və mədəniyyətimizi qoruma hüququmuzu pozur. Bu davranışlar regionda sülh, dialoq və barışıq səylərinə ciddi maneə törədir.

Qeyd edilən məsələlərlə bağlı həm Avropa Şurasının, həm də ATƏT-in açıq mövqe ortaya qoymasını tələb edirik. Çünki indiki davranışın Azərbaycan torpaqlarının işğal altında saxlandığı illərdə Ermənistan tərəfindən törədilən müharibə cinayətlərinə, azərbaycanlı köçkünlərin pozulmuş fundamental insan hüquq və azadlıqlarına göstərilən münasibətdən heç bir fərqi yoxdur. Azərbaycan cəmiyyəti haqlı olaraq ATƏT-ə, Avropa Şurasına və UNESCO-ya inamını itirib. Biz görürük ki, bu günlərdə 1 illiyini qeyd etdiyimiz antiterror əməliyyatından qısa müddət sonra Avropa Şurası Parlament Assambleyası Azərbaycan nümayəndə heyətinə qarşı qərəzli addım atdı. Bu rəftar və münasibət qəbuledilməzdir, onu təşkil edənlər öz məqsədlərinə nail ola bilməyəcəklər. ATƏT, Avropa Şurası məsələlərə ikili standartlar prizmasından yanaşmamalı, obyektiv və qərəzsiz olmalıdır. Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri olaraq biz bütün aidiyyəti təşkilatlarla bu istiqamətdə əməkdaşlığa, əlavə məlumat verməyə, azərbaycanlıların Ermənistandakı maddi və mədəni irsinin qorunması üçün səylərə vasitəçilik etməyə hazırıq.

Bu xüsusda sizi Ermənistanı beynəlxalq öhdəliklərinə uyğun olaraq Azərbaycan xalqına məxsus mədəni irsin bərpasına və qorunmasına təşviq etməyə çağırırıq. Ermənistan BMT Nizamnaməsində və Ümumdünya İnsan Hüquqları Bəyannaməsində əksini tapmış prinsiplərə uyğun olaraq, azərbaycanlıların mədəni-tarixi irsinin müdafiəsini, onların öz ata-baba yurdlarına təhlükəsiz və ləyaqətli qayıdışını təmin etməlidir.

# 20 sentyabr iş günüdür? - Rəsmi açıqlama



***Xəbər verdiyimiz kimi, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi təsis edilib.***

"Unikal"ın məlumatına görə, Nazirlər Kabinetindən bildirilib ki, sentyabrın 20-si iş günüdür.

"Əmək Məcəlləsində müvafiq dəyişiklik yoxdursa, iş günü hesab olunur. Əmək Məcəlləsinə dəyişiklik isə Milli Məclis tərəfindən qəbul edilməlidir", - məlumatda qeyd olunub.

# Antiterror şəhidlərinin məzarları ziyarət olunub

***Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bir qrup şəxsi heyəti Antiterror əməliyyatının ildönümü ilə əlaqədar İkinci Şəhidlər xiyabanını ziyarət edib.***

"Unikal" xəbər verir ki, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Şəhidlərimizin məzarları üzərinə gül dəstələri düzülərək xatirələrinə dərin hörmət və ehtiram nümayiş etdirilib.

Tədbirdə şəhidlərin ölməzliyindən danışılıb və onların xatirələrinin hər zaman əziz tutulacağı əminliklə qeyd olunub.

# "Hakerlər daha çox dövlət sirlərini hədəf alırlar" - Rəis müavini



***"Bu ilin birinci yarısında beynəlxalq miqyasda kiberhücumlar 30 faiz artıb. Bu artımda yeni texnologiyaların tətbiqi, zəif müdafiə üsulları və insan amili xüsusi yer alır".***

"Unikal" xəbər verir ki, bunu Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəis müavini general-mayor Allahverən İsmayılov deyib.

Rəis müavini bildirib ki, hakerlər daha çox fərdi məlumatları, maliyyə məlumatlarını və dövlət sirlərini hədəfə alırlar: "Belə bir mühitdə informasiya təhlükəsizliyi məsələlərinin önəmi daha da artır".

# "Tərtər işi"ndə ittiham olunan şəxslərə cəza istənildi



***Sumqayıt Məhkəmə Kompleksində "Tərtər işi" ilə bağlı ittiham olunan bir qrup şəxsin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.***

Bakı Hərbi Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqının yekunlaşdığı elan olunub.

Dövlət ittihamçısı çıxış edib. Prokuror Əhmədov Ramil Bəşir oğlunun 10 il, Ağayev Fuad Ramiz oğlunun 15 il, Axundov Fuad Arazi oğlunun 11 il, Ağadadaşov Cavid Zahid oğlunun 13 il, Cümşüdov Qurban Qədim oğlunun 13 il azadlıqdan məhrum olunmasını istəyib.

Proses sentyabrın 26-da davam etdiriləcək.

Xatırladaq ki, 2021-ci ilin dekabr ayında Baş Prokurorluqda "Tərtər işi" ilə bağlı cinayət işlərinin icraatının təzələnməsi ilə bağlı qərarlar qəbul edilib. İstintaq zamanı ayrı-ayrı hərbi qulluqçulara işgəncə verilməsi, onların qanunsuz azadlıqdan məhrum edilməsi və vəzifə səlahiyyətlərini aşılmasına əsaslı şübhələr müəyyən edilmiş onlarla şəxs cinayət məsuliyyətinə cəlb olunub.

Təqsirləndirilən şəxslərə Cinayət Məcəlləsinin 145.3 (qanunsuz azadlıqdan məhrum etmə), 293.2 (işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza), 341.2.2 (vəzifə səlahiyyətlərini aşma), 341.2.3 və 128-ci (qəsdən sağlamlığa yüngül zərər vurma) və digər maddələri ilə ittiham irəli sürülüb.

33_27 IYUl-QARA.qxd 9/19/2024 10:02 PM Page 7



# Rəsmi Bakıdan İrəvana tutarlı cavab



***Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək ölkəmizin Qarabağ iqtisadi rayonundan tamamilə çıxarılması, həmin ərazilərdə Azərbaycanın suverenliyinin və konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə lokal xarakterli antiterror tədbirlərinin Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən "Dağlıq Qarabağa hücum" və "etnik təmizləmə" kimi qələmə verilməsi qəbuledilməzdir.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda bildirilib.

"Sülhpərvər ölkə olduğunu iddia etməsinə baxmayaraq, Ermənistan tərəfindən Azərbaycanın əzəli və əbədi torpağı olan Qarabağın "Dağlıq-Qarabağ" kimi qondarma adlarla çağırılması Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı hörmətsizliyin bariz nümunəsidir.

Ötən ilin 19-20 sentyabr tarixləri arasında Silahlı Qüvvələrimiz tərəfindən cəmi 24 saatdan az bir müddətdə öz suveren ərazilərimizdə aparılan antiterror tədbirləri beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə həyata keçirilib. Azərbaycanın öz torpaqları üzərində suverenliyini bərpa etməsi tarixinin ən şanlı səhifələrindən biri olmaqla yanaşı, beynəlxalq hüquq və ədalətin təntənəsidir.

Ermənistanın 2020-ci il Vətən müharibəsində düçar olduğu məğlubiyyətə və qəbul etdiyi öhdəliklərə baxmayaraq və 2023-cü ilədək keçən üç ilə yaxın müddət ərzində öhdəliklərinə zidd şəkildə, nəinki öz qanunsuz silahlı birləşmələrini Azərbaycanın Qarabağ bölgəsindən çıxarmadığı, hətta Azərbaycan ərazilərinə əlavə silah-sursat, hərbi texnika, minalar ötürdüyü məlum idi. Ölkəmizə qarşı mina terrorunu davam etdirən Ermənistan, zaman keçdikcə onun daha geniş vüsət almasına rəvac verirdi. Ermənistan rəsmiləri hər vəchlə ərazilərimizdə saxladıqları qondarma rejimin təbliğatını apararaq, Ermənistan baş naziri 2 sentyabr 2023-cü il tarixində qondarma "müstəqillik" ilə bağlı separatçı rejimə təbriklərini çatdırdı.

Azərbaycanın tarixi və beynəlxalq hüquqi çərçivədə mövcud olan ərazilərinə qarşı əsassız iddialarından, tarixin saxtalaşdırılmasından əl çəkməyən, beynəlxalq hüquq prinsiplərini kobudcasına pozan, yürütdüyü təcavüz siyasəti səbəbindən düşdüyü acınacaqlı vəziyyətdən nəticə çıxarmayan Ermənistanın heç bir çərçivəyə sığmayan bu kimi davranışlarının qarşısının alınması əsas şərtlərdən idi.

2023-cü ilin 19 sentyabr tarixində erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində 6 Azərbaycan vətəndaşının həlak olması isə Azərbaycanın səbir kasasının daşmasına səbəb oldu və antiterror tədbirlərini qaçılmaz etdi.

Ermənistan tərəfinin təhrikedici səylərinə və təbliğatına baxmayaraq, antiterror tədbirləri aparıldığı zaman mülki əhali hədəf alınmadı, mülki infrastruktura zərər vurulmadı, yalnız legitim hərbi infrastruktur və obyektlər sıradan çıxarıldı. Yaşayış yerlərini tərk etməmək barədə Azərbaycan tərəfinin çoxsaylı çağırışlarına, tətbiq etdiyi reinteqrasiya proqramına baxmayaraq, erməni sakinlər Azərbaycan ərazilərini tərk etmək barədə qərar verdilər. Bu onların azad seçimi idi və bunu "etnik təmizləmə" kimi qələmə vermək, Ermənistan və işğal etdiyi Azərbaycan ərazilərindən azərbaycanlıları kütləvi şəkildə qovan, soyqırımı və kütləvi qırğınlar törədən Ermənistanın riyakarlığını nümayiş etdirir.

Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpasından sonra Ermənistan-Azərbaycan əlaqələrinin normallaşdırılması və nəticə etibarilə yekun sülh sazişinin imzalanması üçün tarixi fürsət yaranıb. Bu baxımdan, Azərbaycanın regionumuzun təhlükəsizliyi və tərəqqisi naminə sülh prosesinin təşəbbüskarı olduğu və bu istiqamətdə həqiqi səylər göstərdiyi məqamda Ermənistan konstitusiyasında və digər qanunvericilik aktlarında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddiaların qalması qəbuledilməzdir və Ermənistan tərəfindən tarixi sülh fürsətinin əldən verilməməsi üçün sözügedən iddiaların aradan qaldırılması istiqamətində tezliklə lazımi adekvat addımların atılması zəruridir.

Azərbaycan xalqı və dövləti üçün bu tarixi önəmli gündə bir daha Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən vətən övladlarımızın əziz xatirəsini dərin hörmətlə yad edirik.

Şanlı Silahlı Qüvvələrimizlə fəxr edir, dövlətimizin və xalqımızın hər zaman müzəffər olmasını diləyirik!", - bəyanatda deyilir.

# "Bazarı sakitləşdirmək istəyirlər ki, devalvasiya olmayacaq"

## Natiq Cəfərli: "Rəsmi dövlət qurumları deyə bilməz ki, məzənnə dəyişəcək, manat ucuzlaşacaq, o zaman ajiotaj yaranardı"

***REAL Partiyasının icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, gələn ilin dövlət büdcəsində sosial müdafiə sahəsinə ayrılan vəsaitin hansı istiqamətlərə xərclənəcəyindən, büdcədə neftin ixrac qiymətinin 70 dollardan götürülməsinin səbəblərindən və yaxın illərdə manatın məzənnəsinin necə dəyişə biləcəyindən danışıb.***

***-Natiq bəy, gələn il dövlət büdcəsində sosial müdafiə və sosial təminat üzrə xərclərə 4 milyard 998 milyon manat ayrılması proqnozlaşdırılır. Ötən il bu sahə üçün 4 milyard 391 milyon 430 min 496 manat nəzərdə tutulmuşdu. Beləliklə, 2024-cü illə müqayisədə 2025-ci ildə sosial müdafiə və sosial təminat üzrə xərclər 13,8 faiz artırılır. Bu artım əsasən hansı sahələrə ayrılacaq?***

-Uzun müddətdir müzakirə olunan məsələlərdən biri müharibə veteranlarının müavinətidir. Hazırda müharibə veteranlarının müavinəti 80 manatdır. Bunun artırılması gündəmə gələ bilər. Onun üçün böyük vəsait tələb olunmur. Bu, ölkə üzrə təqribən 180 min müharibə veteranını əhatə edir. Mediada və parlamentdə dəfələrlə bu məsələ qaldırılıb. Ola bilər ki, ilk olaraq müharibə veteranlarının müavinətində müəyyən artım olsun. Hazırda 80 manat olan məbləğin 100-120 manata qədər qaldırılması mümkündür.

Həmçinin, ötən il təqaüdlər artsa da, minimum əməkhaqqı artmadı. Hazırda 345 manat olan minimum əməkhaqqının müəyyən qədər artacağı ilə bağlı gözləntilər var idi. Yanvarın 1-dən minimum əməkhaqqında 10 faizlik artım gözlənilə bilər. Minimum əməkhaqqının artması ümumilikdə əməkhaqqının artmasına səbəb olacaq ki, bunun da 10 % civarında olacağını düşünürəm. Təqaüdlərlə bağlı bu il artım olub. Çox güman ki, 2025-ci ildə indeksləşmə baş verəcək. Orta aylıq əməkhaqqının və inflyasiyanın göstəricilərinə əsasən 4-5 faiz civarında indeksləşmə olacağını düşünürəm. Böyük artım olacağını fikirləşmirəm. Ümumilikdə, sosial xərclərin artırılması müsbət haldır. Çox güman ki, maaşlar daha çox artacaq. Orta aylıq əməkhaqqı bu il heç artmadı. Maaşlarən artması ilə bağlı müəyyən gözləntilər var idi, amma olmadı.

***-Növbəti il dövlət büdcəsində neftin ixrac qiyməti 70 dollar proqnozlaşdırılır. Müxtəlif səbəblərdən neftin qiymətində dəyişikliklərin baş verdiyini görürük. Gələn il "qara qızıl"ın qiymətinin necə olacağını düşünürsüz?***

-İlk dəfədir ki, hökumət neftin qiymətinə konservativ yanaşmadı. Əksinə, daha optimist ssenari ilə yanaşmağa çalışdı. Ona görə ki, neftin qiyməti 70 dollardan götürülməsə, büdcənin kəsiri daha çox olacaqdı. Azərbaycan hökuməti əvvəlki illərdə neftin qiymətini daha aşağı götürürdü. Ona uyğun olaraq büdcə parametrlərini hesablayırdılar. Neft qiymətləri həmişə büdcədə götürüləndən daha yüksək olurdu. Oradan əlavə gəlir daxil olurdu. Sonra may-iyun ayında ilk 5-6 ayda neft qiymətlərinin ortalama vəziyyətinə baxaraq büdcəyə əlavə və dəyişikliklər təklif olunurdu. Həm neftin baza qiyməti artırılır, həm də sosial müdafiə və digər xərclər üzrə artımlar olunurdu. İlk dəfədir ki, belə yanaşmadılar. Yəni, büdcədə neftin qiymətini 60 dollar da götürə bilərdilər. Gərək bu qiymət götürülərdi və may-iyun ayında dəyişiklik olunardı. Görünən odur ki, 60 dollarla büdcə kəsiri yüksək alınır deyə daha optimist yanaşma ilə büdcə hesablamalarına getdilər. Doğrudur, indiki qiymət 70 dollardan da bahadır. Bunun gələcəkdə də olması ehtimalı var. Amma hazırda neftin qiyməti müxtəlif amillərə görə yüksəkdir. Yaxın Şərqdə gərginliyin olması, Husilərin gəmilərə hücum etməsi, Rusiya-Ukrayna müharibəsi və s. kimi bir neçə geosiyasi amillər var. Bunlara baxmayaraq, neftin qiyməti süni azalma hesabına yuxarı çəkildi. Yəni, OPEC+ süni olaraq hasilatı azaltdı ki, bazarda neftin qiyməti daha da aşağı düşməsin. Halbuki geosiyasi gərginliklər neftin qiymətinin yüksəlməsinə bəs etməli idi. Deməli, burada tələb və təklifdə problemlər var. Dünyada elektrik avtomobillərinin artımı, bərpaolunan enerjinin geniş yayılması, yaşıl iqtisadiyyata keçid və s. neft istehlakını azaldan amillərdir ki, bu da neftin qiymətinə mənfi təsir göstərir. Gələn il neftin qiymətinin 70 dollardan aşağı düşməsi ehtimalı var. Belə olarsa, ilk dəfə tariximizdə bu halla qarşılaşa bilərik və büdcəyə qoyduğumuz qiymət real qiymətdən daha baha ola bilər. Həmişə bizdə əksinə olub. Belə ki, büdcədə neftin qiyməti daha aşağı götürülüb. Əgər neftin qiyməti artıbsa, büdcə artım yönündə dəyişdirilib. İlk dəfə ortalama qiymət 70 dollardan aşağı düşəcəksə, ilin ortasında büdcəyə azalma istiqamətində baxılma ehtiyacı yaranacaq.

***-İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş makroiqtisadi proqnozlarda 2025-2028-ci illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi sabit, cari ilin səviyyəsində götürülüb. Sizcə, növbəti illərdə manatın məzənnəsi sabit qalacaq və ya hansısa dəyişiklik ola bilər?***

-Rəsmi dövlət qurumları deyə bilməz ki, məzənnə dəyişəcək, manat ucuzlaşacaq. O zaman ajiotaj yaranardı. Hamı əlində olan 100 manatı belə dollara çevirməyə çalışardı ki, bu da bank sisteminə və valyuta rezervlərinə böyük zərbə vura bilərdi. Bunu bazara sözlü müdaxilə kimi qiymətləndirirəm. Doğru yanaşmadır. Bazarı sakitləşdirmək istəyirlər ki, devalvasiya olmayacaq. Biz belə açıqlamaları 2012,2013,2014-cü illərdə də görürdük ki, sabit məzənnə rejimi davam edəcək. 2015-ci ildə 3 pilləli devalvasiya yaşadıq. Yəni, dünya bazarının bəzən gedişata təsir mexanizmləri yaranır. Hökumət 2015-ci ildə ona görə bu addımı atmağa məcbur oldu ki, neftin qiyməti 35-36 dollara düşdü, gəlirlər kəskin azaldı. İşğaldan azad olunmuş ərazilərə milyardlarla vəsaite ehtiyac var. 2030-cu ilə qədər ora əlavə 60 milyard manat xərclənməlidir. Həmin vəsaiti əldə etmək üçün ola bilər ki, manatda daha yumşaq siyasətə keçid qərarı verilsin. Bu ilin sonunda və gələn ilin əvvəlində məzənnənin dəyişəcəyini gözləmirəm. Amma gələn ilin sonu, 2026-cı ilin əvvəllərində məzənnəyə inzibati dəyişikliklər mümkündür. Ona görə ki, bizdə manatın məzənnəsini bazar tənzimləmir. Məzənnə inzibati qərarla tənzimlənir.



**Anar Kəlbiyev**

33_27 IYUI-QARA.qxd 9/19/2024 10:02 PM Page 8



# Monopolistlərdən növbəti bahalaşma həmləsi

## Kərə yağının qiymətindəki kəskin artıma səbəb nədir? - Sensasion təfərrüatlar

***Son günlər kərə yağının qiymətində xeyli bahalaşma müşahidə edilir. Bəzi kərə yağları 3, bəziləri isə 6 manat bahalaşıb.***

Elə satıcılar da qiymətlərin son günlər 3-6 manat arasında artdığını deyiblər.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin ilk 6 ayı ərzində Azərbaycana 71 milyon 44 min dollar dəyərində 13 min 509 ton kərə yağı və süddən hazırlanmış digər yağlar idxal olunub. Bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 24 milyon dollar və ya 51% çoxdur.

İqtisadçı Xalid Kərimli isə qeyd edib ki, qlobal bazarda süd məhsullarında bahalaşma qeydə alınıb. Onun sözlərinə görə, Azərbaycan yağ idxalından asılı olan ölkə olduğu üçün xaricdə baş verənlər birbaşa daxili bazara təsir edir. Ekspert vurğulayıb ki, Azərbaycan kərə yağını əsasən Rusiya, Belarus, İran, Yeni Zelandiya və digər ölkələrdən gətirir. Lakin bir sıra ekspertlər kərə yağının qiymətindəki kəskin artımı sadəcə dünya bazarındakı bahalaşma ilə əlaqələndirməyi doğru saymırlar. Hələ bir neçə ay öncə məlum olmuşdu ki, ölkədəki kərə yağı bazarında kərə yağlarının idxal qiyməti ilə onların müştəriyə satış qiyməti arasında böyük fərq var. Acınacaqlısı odur ki, həmin fərq hər il artmaqdadır. Belə ki, 10 il əvvəl marketlərdə satılan xarici kərə yağının qiyməti ilə həmin yağın idxal qiyməti arasında cəmi 58% fərq var idisə, hazırda bu fərq 100%-i keçib, yəni 2 dəfədən artıqdır.




Belə ki, araşdırmaya əsasən, 2014-cü ildə Azərbaycana gətirilən kərə yağının 1 kiloqramının idxal qiyməti (burada və bundan sonrakı bütün hallarda söhbət il üzrə orta qiymətdən gedir -müəl.) cəmi 4,34 manat olub. Həmin ildə yağın pərakəndə satış şəbəkəsində, yeni marketlərdəki son qiyməti isə 6,86 manat təşkil edib. Başqa sözlə, kərə yağının marketdəki satış qiyməti - onun idxal qiymətindən 2,52 manat artıq olub ki, bu da "cəmi" 58% artım deməkdir. 2022-ci ildə isə həmin artım 2 dəfəyə çatıb. Dövlət Statistika Komitəsinin idxal məlumatlarından aydın olub ki, 2022-ci ilin ilk 6 ayında xarici ölkələrdən Azərbaycana ümumi dəyəri 55 milyon 713 min dollarlıq 9 min 975 ton kərə yağı idxad edilib. Kərə yağının 1 kiloqramının idxal qiyməti 5,6 dollar və ya 9,5 manat təşkil edib. Başqa sözlə, 2022-ci ilin ilk 6 ayında xaricdən Azərbaycana idxal edilən kərə yağının idxal qiyməti 7,2-12,2 manat arasında dəyişib. Ən bahalı yağ Almaniyadan, ən ucuz yağ isə İrandan idxal edilib. İdxalda ən çox paya malik olan və Azərbaycanın ticarət şəbəkələrində də ən çox satılan Yeni Zelandiya yağının kiloqramı isə ölkəyə 10,6 manatdan idxal edilir.

Amma bu dövrdə Azərbaycanın ticarət şəbəkələrində isə idxal edilmiş kərə yağının 1 kiloqramının pərakəndə satış qiyməti 18,53 - 19,62 manat arasında dəyişib. Kərə yağının rota qiyməti isə 18,20-19,12 manat arasında olub.

Başqa sözlə, xaricdən idxal edilən kərə yağının pərakəndə qiyməti onun idxal qiymətini 2 dəfə üstələyib.

Kərə yağının idxal olunduğu qiymətdən 2 qat artıq qiymətə satılması əvvəlki illərdə də baş verib. Məsələn, 2021-ci ildə Azərbaycana ümumilikdə 71 milyon 922 min 190 dollar dəyərində 13 min 696 ton 590 kiloqram kərə yağı idxal edilib. İdxal edilən kərə yağının hər kiloqramı 5,25 dollar və ya 8,92 manat təşkil edib. Amma bu dövrdə xaricdən idxal olunan kərə yağının 1 kiloqramı mağaza və ticarət şəbəkələrində 16,50-18,05 manata satılıb. Kərə yağının orta qiyməti isə 16,41-17,89 manat arasında olub.

Göründüyü kimi, 10 il öncə yağın qiymətinin gömrükdən markete qədər artımı 58% təşkil etdiyi halda son bir neçə ildə bu, 100 faizi ötüb. Əslində 58 faizlik fərq də yüksək bahalaşma kimi görünə bilər. Lakin görünür, həmin vaxt inhisarçılar daha insaflı olublar...

Ən maraqlısı (əlbəttə, həm də ən absurdu!) odur ki, 2017-ci ildə Azərbaycana idxal olunan kərə yağı və komponentlərinə tətbiq olunan gömrük rüsumları ilə bağlı güzəştlər tətbiq edilməyə başlanılıb. 2021-ci ildə həmin güzəştlərin müddəti daha iki il uzadılıb. Bununla bağlı Baş nazir Əli Əsədov "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə qərar imzalayıb. Güzəştlər 2021-ci ilinn sonundan 2023-cü ilin sonunadək uzadılıb və bununla bağlı bu məhsullara 5 %-lik idxal gömrük rüsumlarının tətbiq ediləcəyi bildirilib. Daha əvvəl isə həmin məhsullara 15 %-lik idxal gömrük rüsumu tətbiq edilirdi.

Qərar daxili bazarda kərə yağının qiymətinin artımına yol verilməməsi üçün kərə yağı, süddən hazırlanmış digər yağlar və süd pastalarının idxalına tətbiq olunan rüsum güzəştinin qüvvədə olma müddətinin uzadılması məqsədilə qəbul edilib. Bununla da kərə yağı, süddən hazırlanmış digər yağlar və süd pastalarının idxalı üzrə rüsum güzəştinin qüvvədə olma müddətinin uzadılması nəticəsində istehlak qiymətlərində sabitliyin təmin olunması və kərə yağı məhsulları ilə təminatın səviyyəsinin qorunub saxlanılması proqnozlaşdırılıb.

Lakin göründüyü kimi, hətta gömrük rusumlarında güzəştlər də demək olar heç nəyi dəyişməyib: vətəndaş sözügedən məhsulu idxal qiymətindən 2 dəfə, hətta bir az da baha qiymətə almaq məcburiyyətində qalıb. Bu isə monopolistlərin açıq-aşkar soyğunçuluğundan xəbər verir. Bir daha aydın olur ki, müxtəlif məhsullarla yanaşı, kərə yağının qiymətindəki mütəmadi artımı da yalnız dünya bazarlarındakı proseslərlə izah etmək mümkün deyil. Azərbaycanda bahalaşma təkcə obyektiv səbəblərə yox, həm də subyektiv səbəblərə əsaslanır. Subyektiv səbəblərin kökündə isə inhisarçılıq və məmur maraqları dayanır.

***Sənan Mirzə***



## "Ermənistan 2020-ci ildə baş verənlərdən nəticə çıxarmadı" - Ceyhun Məmmədov

***"Vətən müharibəsində qələbə ilə Azərbaycan bölgədə yeni reallıq yaratdı".***

"Unikal" xəbər verir ki, bunu VI çağırış Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib.

Onun sözlərinə görə, Ermənistan Vətən müharibəsi başa çatdıqdan sonra imzalanan üçtərəfli Bəyanat üzrə öhdəliklərini qətiyyən yerinə yetirmirdi: "Erməni silahlılarının ölkəmizin ərazilərindən çıxarılmaması Azərbaycanı dərindən narahat edirdi. Ermənistan isə silahlı birləşmələrini ərazilərimizdən çıxarmaq əvəzinə orada şəxsi heyət, zirehli vasitələr, artilleriya qurğuları saxlayırdı. Həmin ərazilərə müharibədən sonra Ermənistanda istehsal olunan minalar daşınırdı. Burada məqsəd separatçı rejimin Azərbaycan Ordusuna qarşı müqavimətini gücləndirmək idi. Ermənistandan Azərbaycan ərazilərinə göndərilən minalarla itkilərimiz davamlı olaraq artırdı. Bütün bunları nəzərə alan ölkəmizin xəbərdarlığına və bəyanatlarına məhəl qoymayan separatçı rejim və onu dəstəkləyən Paşinyan komandasının cəzalandırılması üçün Azərbaycan antiterror tədbirlərini həyata keçirmək qərarını verdi. Bu antiterror tədbirləri Azərbaycan ərazilərində mövcud olan erməni silahlılarından min nəfərdən çoxunun məhv edilməsi və ya yaralanması ilə nəticələndi".

O qeyd edib ki, qəhrəman Azərbaycan Ordusu cəmi bir gün ərzində yüzlərlə kvadratkilometr işğal altındakı ərazimizi azad etdi: "Düşmənin 65-ə yaxın zirehli və zirehsiz vasitələrini, avtomobil texnikasını sıradan çıxardı. Ordumuz düşmənin döyüş texnikalarını, artilleriya vasitələrini, xüsusi texnikalarını qənimət olaraq ələ keçirdi. Bundan başqa, ermənilər atıcı silahlarını və onlara aid milyonlarla sursatı da döyüş meydanında atıb getdi. 2020-ci ildə baş verənlərdən Ermənistan nəticə çıxarmadı. İkinci Qarabağ müharibəsinin nəticələri Ermənistana dərs olmadı. Əgər dərs olsaydı, antiterror əməliyyatının keçirilməsinə ehtiyac olmazdı. 2023-cü ildə Azərbaycan bu işğala son qoydu. Cəmi 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və 2023-cü il sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror tədbirləri dayandırıldı".

C.Məmmədov vurğulayıb ki, bu gün sülh ən çox Ermənistana lazımdır: "Ermənistan anlamlıdır ki, bu gün onlar sülh üçün ciddi səylər göstərməlidirlər. Çünki Ermənistan özü blokadada qaldı və ciddi problemlər yaşadı. Münasibətlərin bərpasından sonra regional əməkdaşlıq, Zəngəzur dəhlizinin açılması və digər məsələlər Ermənistan iqdisadiyyatının dirçəlməsi üçün vacibdir. Bu şans uzun illər olmayacaq. Azərbaycan əlinin uzun müddət havada qalması ilə barışmayacaq".

33_27 IYUl-QARA.qxd 9/19/2024 10:02 PM Page 9





# Hüseyn Abdullayevi həkim Adil Qeybulla müayinə edəcək - Məhkəmə qərar verdi

***Cinayət yolu ilə əldə edilmiş 5,5 milyon manat pulu leqallasdirmaqda ittiham olunan keçmiş deputat Hüseyn Abdullayevin məhkəməsi davam etdirilib.***

"Unikal"ın məlumatına görə, Cinayət Məcəlləsinin 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş pulların leqallaşdırılma) maddəsi ilə ittiham olunan Hüseyn Abdullayevin məhkəmə prosesi hakim Azər Tağıyevin sədrliyi ilə keçirilib. Onlayn keçirilən məhkəmə prosesinə Bakı İstintaq Təcridxanasından qoşulan Hüseyn Abdullayev şəhəri ilə əlaqədar kamera qabağında görüntülənmək istəməyib. Ancaq hakim bunun mümkün olmadığını bildirdi və vəkil Şəhla Hümbətovanın yanında olmaqla prosesi davam etdirib.

Sonra hakim tərəflərin vəsatətinin olub-olmaması ilə maraqlanıb. Vəkil Cavad Cavadov Hüseyn Abdullayevin sağlamlıq durumunu müayinə etmək üçün professor Adil Qeybullanın Bakı İstintaqa Təcridxanasına buraxılması ilə bağlı vəsatət verdi. Bildirdi ki, Adil Qeybulla bundan öncə də digər təqsirləndirilən şəxsləri müayinə etmək üçün təcridxanaya buraxılıb və buna Ədliyyə Nazirliyi Tibb Baş İdarəsi də etiraz etmir.

Hüseyn Abdullayev də vəkili ilə razı olduğunu bildirdi.

Dövlət ittihamçısı Rauf Malışov isə vəkil Cavad Cavadovun vəsatətinin təmin olunmamasını istədi.

Hakim Azad Tağıyev məhkəmə həyatı ilə müşavirə etdikdən sonra vəkilin vəsatətini təmin etdi.

Sonra dövlət ittihamçısı hakimin təklifi ilə ittiham aktını elan etdi. İttiham aktına görə, Hüseyn Abdullayev 2006-2014-cü illərdə cinayət yolu ilə əldə etdiyi 5 milyon 581 min manat pulu bankdakı hesabları vasitəsilə leqallaşdırıb.

Dövlət ittihamçısı ittiham aktını elan edən zaman Hüseyn Abdullayev səhəti ilə əlaqədar dayana bilmədiyindən ittiham aktının tam oxumasına etiraz edib. Həmçinin bildirib ki, ittiham aktı saxta tərtib olunub, hüquqla heç bir əlaqəsi yoxdur, özümü bu işdə təqsirli bilmirəm.

Sonra təqsirləndirilən şəxsin vəkili Ceyhun Yusifov dövlət ittihamçısına belə bir sual verib: Cənab prokuror, 2006-2014-cu illərdə bu maddə Cinayət Məcəlləsində var idi?

Dövlət ittihamçısı Rauf Malışov cavab olaraq bildirib ki, Hüseyn Abdullayevə verilən ittihamı müdafiə edirəm.

Sonra qərar qəbul olundu ki, məhkəmə istintaqı ilkin olaraq şahidlərin dindirilməsi ilə başladı. Şahid İlqar Mustafayev dindirildikdən sonra məhkəmə prosesi oktyabr ayının 3-nə kimi təxirə salındı.

Xatırladaq ki, cinayət işinin istintaqı Baş Prokurorluq tərəfindən aparılıb.

Qeyd edək ki, Hüseyn Abdullayev 2018-ci ildə həbs edilib. O, külli miqdarda maddi ziyan vurmaqla dələduzluqda ittiham edilərək 6 il müddətinə azadlıqdan məhrum edilmişdi.

***Seymur Əli***

# Dənizkənarı Bulvar İdarəsindəki korrupsiyanın pərdəarxası

## "Unikal"ın yazdıqları təsdiqləndi: İlqar Mustafayev həbs olundu - 2 milyonluq yeyinti başqa kimlərə başağrısı yarada bilər?

***Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, Dənizkənarı Bulvar İdarəsinin vəzifəli şəxsləri barəsində cinayət işi başlanıb.***

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumatda bildirilib ki, Dənizkənarı Bulvar İdarəsi Publik Hüquqi şəxsin vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə Azərbaycan Respublikası Hesablama Palatasından daxil olmuş material əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. İbtidai istintaqla həmin İdarənin İdarə Heyətinin sabiq sədri Mustafayev



İlqar Əziz oğlunun 2021-2023-cü illər ərzində İdarənin fəaliyyəti istiqamətləri üzrə ayrılmış xüsusilə külli miqdarda pul vəsaitini mənimsəmə və israf etmə yolu ilə talamasına, vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə və vəzifə saxtakarlığı törətməsinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış ilkin sübutlar əsasında İlqar Mustafayevə Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilməklə müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Binəqədi Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.Hazırda cinayət işi üzrə ibtidai istintaq davam edirilir.

İki gün öncə isə Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sabiq sədri İlqar Mustafayevin həbsinin detalları məlum olub. "Qafqazinfo"nun əldə etdiyi məlumata görə, İlqar Mustafayev iki il ərzində bulvar büdcəsində olan 2 milyon manatdan artıq pul vəsaitini tamah niyyəti ilə mənimsəməkdə təqsirləndirilir.

Hesablama Palatası bir müddət əvvəl həmin idarədə audit yoxlaması aparıb və çatışmazlıqlar aşkar olunub. Onunla bağlı toplanmış materiallar Baş Prokurorluğa göndərilib. Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin apardığı geniş istintaqla isə ziyanın 2 milyondan bir qədər çox olması təsdiqini tapıb.

İstintaq orqanı ziyanın böyüklüyünü və digər əsasları nəzərə alaraq sabiq idarə rəisinin həbsini tələb edib. Binəqədi Rayon Məhkəməsinin qərarı ilə İ.Mustafayev haqda 3 ay 22 gün müddətinə həbs qətimkan tədbiri seçilib. Onun ittiham edildiyi 179.4-cü (mənimsəmə-xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsinin sanksiyasında 14 ilə kimi azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

Xatırladaq ki, İ.Mustafayevin başı üzərində "qara buludlar" dolaşmağa başlamasını hələ bu ilin mayında "Unikal" olaraq yazmışdıq. Həmin yazıda xatırladılırdı ki, ölkə başçısı bu il yanvarın 29-da İlqar Mustafayevi Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri postundan azad edib. Prezidentin başqa bir sərəncamı ilə həmin posta Xanlar Ağalarov təyin olunub. Xanlar Ağalarov bundan öncə Mədəniyyət Nazirliyinin Aparat rəhbəri vəzifəsində çalışıb. Onu da bildirmişdik ki, son illərdə Dənizkənarı Bulvar İdarəsindən müəyyən şikayətlərin olduğu sirr deyildi. Belə ki, 2016-cı ildə Əfqan Şahmarov adıçəkilən idarənin rəisi vəzifəsindən azad edilib, həmin posta İlqar Mustafayev təyin olunmuşdu. Sonuncunun rəhbərliyi dövründə belə şikayətlər daha da intensivləşmişdi. Söhbət ilk növbədə bulvar ərazisindəki obyektlərdə qiymətlərin hədsiz baha olmasından gedir.

Həmçinin Hesablama Palatasının adı çəkilən idarədə yoxlamalar apardığını qeyd etmiş və vurğulamışdıq ki, yoxlamalar nəticəsində xeyli nöqsanlar ortaya çıxıb. Aydınlaşıb ki, qeyri-büdcə gəlirlərinin tərkib hissəsi kimi sahibkarlıq fəaliyyətindən əldə olunmuş pul vəsaitlərinin məbləğinin dövlət sifarişi üzrə dövlət büdcəsindən maliyyələşən gəlirlərə nisbətinin artmasına baxmayaraq, dövlət büdcəsinin vəsaitlərindən asılılığın tədricən (müvafiq hədlərdə) azaldılmasına nail olunmamaqla, asılılıq səviyyəsi artıb. Həmçinin, hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun qeyri-büdcə gəlirləri üzrə əlavə potensialın da mövcudluğu şəraitində əməyin ödənişi və mükafatlandırılması xərclərinin qeyri-büdcə mənbələri hesabına maliyyələşdirilməsində irəliləyişlər əldə olunmayıb. Bu isə "Hüquqi nəticə yaradan hərəkətləri dövlətin adından həyata keçirən, Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxsin (statusu Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilən, habelə dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki publik hüquqi şəxslər istisna olmaqla) işlər görülməsindən və xidmət göstərilməsindən əldə etdiyi vəsaitin (o cümlədən tutulan xidmət haqlarının) həmin publik hüquqi şəxsin sərəncamında qalan hissəsindən istifadə Qaydası"nın tələblərinin (3.1-ci bəndinin) pozulması deməkdir.

Onu da bildirmişdik ki, İ.Mustafayevin işdən azad olunmasında məhz Hesablama Palatasının apardığı yoxlamalar nəticəsində aşkarlanan nöqsanlar həlledici rol oynayıb. Bütün bunları ümumiləşdirdikdə isə Dənizkənarı Bulvar İdarəsinin sabiq rəhbərinin hüquqi məsuliyyətə cəlb olunması sürpriz deyil.

İndi aktual olan suallardan biri budur: İ.Mustafayevin milyonlarla manatlıq yeyintisi başqa hansı məmurlara başağrısı yarada bilər, onun korrupsiya ortaqları və bu ortaqlar arasında hansısa vəzifəli şəxslər varmı? Yəqin ki, istintaq müddətində həmin sualın da cavabı axtarılacaq...

***Toğrul Əliyev***

# Sabiq deputat və biznesmenin şirkəti ətrafında cərimə müəmması

## Məşhur Məmmədova aid olduğu bildirilən MMC niyə Dövlət Vergi Xidməti tərəfindən üç dəfə cəzalandırılıb?

***Mebel istehsalçısı "Embawood" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) nağdsız ödənişlərdən imtina etdiyi üçün cərimələnib.***

Yerli KİV-in məlumatına görə, mebel şirkəti bu səbəbdən İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən 3 dəfə cəzalandırılıb.

Qanuni təmsilçisi Abbasov Elşad İnşalla oğlu olan "Embawood" MMC-yə fərqli vaxtlarda 5885.20, 3441.60 və 3037.00 manat maliyyə sanksiyası tətbiq edilib.

Maraqlıdır ki, bu ilin aprelində "Embawood" MMC barəsində gömrük qaydaları əleyhinə olan inzibati xəta protokolunun tərtib edildiyi barədə məlumat yayılmışdı. Həmin vaxt bildirilirdi ki, bu protokol İnzibati Xətalar Məcəlləsinin 485.2-ci maddəsi ilə irəli sürülüb.



Qeyd edək ki, İnzibati Xətalar Məcəlləsinin 485.2-ci maddəsinə görə, Gömrük Məcəlləsi ilə müəyyən edilmiş hallarda qısa idxal bəyannaməsinin mallar gömrük ərazisinə gətirilməzdən əvvəl elektron formada verilməməsinə görə - vəzifəli şəxslər 1 000 manat məbləğində, hüquqi şəxslər 1 500 manat məbləğində cərimə edilir.

Ötən il də "Embawood" MMC barəsində gömrük qaydaları əleyhinə olan inzibati xəta protokolu tərtib edilmişdi.

Onu da qeyd edək ki, "Embawood" mebel firmasının sahibi sabiq deputat Məşhur Məmmədovdur. O, VI çağırış Milli Məclisin deputatı olub.

O, sentyabrın 1-də parlamentə keçirilən seçkilərdə namizəd olduğu 74 saylı Masallı seçki dairəsində hələ ki, rəsmi təsdiqlənməmiş nəticələrə görə liderdir.

Milli Məclisin aktiv olmayan deputatlarından sayılan M.Məmmədova aid şirkətin mütəmadi maliyyə sanksiyalarına məruz qalması maraq doğurur.

Qeyd edək ki, Məşhur Məmmədov 2002-2009-cu illərdə "Embawood" MMC-nin direktoru, 2009-2011-ci illərdə "Embawood İnşaat" MMC-nin direktoru, 2011-2014-cü illərdə "Embawood" MMC-nin baş direktorunun birinci müavini, 2014-2020-ci illərdə "Progress Construction" MMC-nin direktoru vəzifələrində çalışıb. Hazırda o həm də Azərbaycan Mebel İstehsalçıları Assosiasiyasının sədridir.

Məşhur Məmmədovun ölkə daxilində və xaricində biznesi olduğu isə kimsəyə sirr deyil. Ona aid olduğu deyilən "Embawood"un Qazaxıstanda 26, Gürcüstanda 21 mağaza, Ukraynada 20-dən çox mağaza, dünyanın digər bir çox ölkəsində isə satış nöqtələrinin olduğu bildirilir. Şirkətin Azərbaycanda isə ümumi sahəsi 85 000 kv. metrdən çox olan 141 mağazası fəaliyyət göstərir.

Onu da deyək ki, sabiq deputat və biznesmenin adı bir neçə il öncə vaxtilə onun biznesinə şərik olan qohumları ilə qalmaqal yaşadığına dair xəbərlərdə çəkilirdi. Yerli KİV yazırdı ki, Məşhur Məmmədov şəriki ilə Bank olmayan kredit təşkilatı - "BOKT Embafinans"dakı payının bir hissəsini satıb. Belə ki, "Embafinans" QSC-in səhmdarları Elşad Abbasov (60% idi) və Milli Məclisin VII çağırış deputatı Məşhur Məmmədov (40%) paylarının bir hissəsini yeni investora satıblar. Məlumata görə, Tamara Polyakova BOKT-un səhmlərinin 14%-nə yiyələnib. Bu əməliyyatdan sonra Elşad Abbasovun payı 51%-ə, Məşhur Məmmədovun payı isə 35%-ə düşüb. Nəticədə tərəflər arasında ədavət ortaya çıxıb.

Medianın diqqətindən yayınmayan daha bir mühüm nüans isə Məşhur Məmmədovun oğlu ilə qızının ölkə xaricinə üz tutmasıdır. Bildirilib ki, biznesmen-deputatın oğlu Məmməd və qızı Mədinə Şahbazova artıq bir müddətdir ki, ABŞ-yə köçüb. Babalarının adını soyad götürən deputatın övladlarının Nyu-Yorkda məskunlaşdıqları deyilir.

Sabiq deputat və biznesmenin 1994-cü il təvəllüdlü oğlu Məmməd Şahbazov 2013-2017-ci illərdə ABŞ-ın Konnektikut Universitetində bakalavr, 2017-2019-cu illərdə isə Nyu-York Universitetində magistr təhsili alıb. Məmməd Şahbazov hazırda Nyu-Yorkda fəaliyyət göstərən "Reynolds Asset Management" adlı daşınmaz əmlak şirkətində çalışır.

Məmməd Şahbazov iki il öncə ABŞ-da "Masalli Enterprise LLC" adlı şirkət təsis edib.

"Masalli Enterprise LLC" 2022-ci il aprel ayının 20-də Nyu-Cersi ştatının Gəlirlər İdarəsi tərəfindən qeydə alınıb.

Şirkətin hüquqi ünvanı Məşhur Məmmədovun ailə üzvlərinin Nyu-York şəhərində yaşadıqları "335 Riverdale Dr Fort Lee, NJ 07024-4441" ünvanında yerləşir.

Bu mülkün 2019-cu ilin əvvəllərində alındığına dair xəbərlər var. İddialara görə, sabiq deputat və biznesmen həmin daşınmaz əmlakı 1 milyon 140 min manat dollara, yəni təxminən 2 milyon manata alıb. Villanın illik dövlət vergisi isə təxminən 45 min manat, daha dəqiq desək, 26,374.15 dollardır.

Bütün bunların fonunda Məşhur müəllimə aid olduğu deyilən şirkətin müxtəlif fasilələrlə 3 dəfə maliyyə sanksiyasına məruz qalması maraq doğurmaya bilməz.

Məşhur Məmmədov ötən illər ərzində özü və yaxınları ilə bağlı kütləvi informasiya vasitələrində yayılan məlumatlara, iddialara demək olar ki, münasibət bildirməyib. O, yazılanları indiyədək nə təsdiq, nə də təkzib edib.

***Toğrul Əliyev***

# Sahib Məmmədov daha bir sanatoriyanın baş həkimini işdən çıxardı



***Azərbaycan Respublikası Həmkarlar İttifaqı Konfederasiyası, "Kurort" Qapalı Səhmdar Cəmiyyətinin "Abşeron" Mədə-Bağırsaq Sanatoriyasının baş həkimi Fəxrəddin Kazımov vəzifəsindən azad edilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bununla bağlı AHİK sədri Sahib Məmmədov əmr imzalayıb.

Sanatoriyanın baş həkimi vəzifəsinin icrası Şahin Quliyevə həvalə edilib.

Xatırladaq ki, bir neçə gün əvvəl "Bilgəh" kardioloji sanatoriyasının baş həkimi Muxtar Əhmədov da vəzifəsindən azad edilib.

***Murad İbrahimli***

# "Ermənistan hələ də silahlanmaya üstünlük verir" - İqtisadçı



***"Ermənistanın hələ də silahlanmaya üstünlük verməsinə rəğmən Azərbaycan 2025-ci ildə hərbi xərclərini 468.0 milyon manat (275.2 milyon dollar) azaldaraq bərpa və inkişafa əhəmiyyətli vəsait ayırmaqda davam edəcək".***

"Unikal" xəbər verir ki, bunu VI çağırış Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramov deyib.

O bildirib ki, Ermənistanın 30 illik işğal müddətində tamamilə dağıdıb xarabalığa çevirdiyi Qarabağ və Şərqi Zəngəzurun qurulmasına isə Azərbaycanın dövlət büdcəsindən gələn il 4.0 milyard manat (2.352 milyard dollar) ayrılacaq.

"Bu, işğaldan azad olunan ərazilərimizdə intensiv quruculuğun davam edəcəyini bir daha təsdiq edir. Həmçinin, Azərbaycanın zəfəri ilə regionda formalaşmış yeni düzənin daha da möhkəmlənməsi anlamına gəlir".

# 60 minlik dələduzluq edən MMC əməkdaşlarının məhkəməsi başladı



***Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq, külli miqdarda törədildikdə) və 320-ci (rəsmi sənədləri saxtalaşdırma) maddələri ilə təqsirli bilinən şəxslər- Qurbanov Mustafa Zirəddin oğlu və Kərimov Maqsud Qadir oğlunun məhkəmə prosesinin hazırlıq iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, ilkin olaraq təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib. Mustafa Qurbanovun MMC-də dizayner işlədiyi məlum olub. Digər MMC işçisi Maqsud Kərimovun da anket məlumatları dəqiqləşdirildikdən sonra zərərçəkən Seyran Əhədovun anası Gülxar Əhədovanın məhkəməyə təqdim etdiyi etibarnaməsi qəbul olunub. Səbəb isə zərərçəkən kimi tanınan Seyran Əhədovun hazırda ölkədə olmaması göstərilib.

Qeyd edək ki, təqsirləndirilən şəxslər barəsində ibtidai istintaq dövründə "polis nəzarəti altına vermə" qətimkan tədbiri seçilib. Mustafa Qurbanovun vəkili zərərçəkən şəxsin onun müvəkkilindən heç bir şikayətinin olmamasını qeyd edib, bunula bağlı ərizənin olmasını da bildirib. Və həmçinin iş materialları ilə tanış olmadığı üçün məhkəmənin hazırlıq iclasının təxirə salınması ilə bağlı şifahi vəsatət verib. Hakim vəkilin vəsatətini təmin edərək məhkəmə prosesinin hazırlıq iclasını 26 sentyabr tarixinə kimi təxirə salıb.

İttiham aktı ilə məlum olub ki, MMC əməkdaşları işlədikləri şirkətin adından istifadə edərək vətəndaşa qarşı 60 min manatdan çox dələduzluq ediblər.

***Seymur Əli***

33_27 IYUI-QARA.qxd 9/19/2024 10:02 PM Page 11



# Sərhədi qanunsuz keçməyə cəhd göstərən İran vətəndaşı saxlanıldı




***Azərbaycanın dəniz sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsi, Xəzər dənizində qaçaqmalçılığa qarşı mübarizə sahəsində təxirəsalınmaz tədbirlər davam etdirilir.***

Dövlət Sərhəd Xidmətindən "Unikal"a verilən məlumata görə, sentyabr ayının 10-da saat 01:37-də Xidmətinin Sahil Mühafizəsi tərəfindən Xəzər dənizinin cənub hissəsində İran İslam Respublikasından şimal istiqamətinə hərəkət edən naməlum üzmə vasitəsi aşkar olunub.

Aşkarlanmış hədəfin saxlanılması məqsədilə sahil nəzarəti bölmələri aidiyyəti üzrə məlumatlandırılıb, dövlət sərhədinin mühafizəsində olan sərhəd gəmisi dərhal həmin istiqamətə göndərilib, sahil xəttinin qapadılması üzrə təxirəsalınmaz tədbirlər görülüb və təqibetmə əməliyyatına başlanılıb.

Sərhəd pozucusu üzmə vasitəsinin bortunda olan naməlum əşyanı dənizə atıb, ərazidən uzaqlaşmağa cəhd göstərərkən sərhəd gəmisi tərəfindən xəbərdarlıq atəşi açılıb.

Sahil Mühafizəsinin sahil nəzarəti bölmələri və sərhəd gəmisinin qarşılıqlı fəaliyyəti nəticəsində kiçik həcmli üzmə vasitəsilə dövlət sərhədini pozaraq Azərbaycana ərazisinə keçməyə cəhd göstərən İran vətəndaşı 1995-ci il təvəllüdlü Bəhnam Bəndə Muhamməd saxlanılıb.

Axtarış tədbirlərinin davamı olaraq sərhəd pozucusunun təqibetmə əməliyyatı zamanı dənizə atdığı 2098 qutu "Manchester Nano Black" markalı siqaret aşkar olunaraq götürülüb.

Fakt üzrə əməliyyat-istintaq tədbiri davam etdirilir.

# 26 il əvvəlki qətlə görə 17 il cəza aldı



26 il əvvəl törədilmiş qəsdən adam öldürmə cinayəti üzrə təqsirləndirilən Kərim Kərimlinin cinayət işi üzrə məhkəmə istintaqı yekunlaşıb.

"Unikal"ın əldə etdiyi məlumata görə, bu barədə qərar Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Səbinə Məmmədzadənin sədrliyi ilə keçirilən prosesdə elan edilib. Dövlət ittihamçısı Ziya Mansurov ittiham nitqi ilə çıxış edərək, məhkəmədən təqsirləndirilən şəxsin 18 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Vəkil müdafiə çıxışı etdikdən sonra təqsirləndirilən şəxs son söz deyib.

Məhkəmə müşavirəyə gedib qayıtdıqdan sonra hökmü elan edib. Hökmə əsasən, təqsirləndirilən şəxs qəti olaraq 17 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, Nizami Rayon Prokurorluğundan verilən məlumata görə, 1933-cü il təvəllüdlü Zoyaxanım Rzayevanın 1997-ci il yanvarın 24-də yaşadığı evdə qəsdən öldürülməsi faktı üzrə ötən illərdən bağlı qalmış cinayət işinin açılması təmin edilib.

Prokurorluq, Daxili işlər orqanları və Ədliyyə Nazirliyinin Penitensiar xidməti tərəfindən həyata keçirilmiş məqsədyönlü və koordinasiyalı tədbirlər nəticəsində Kərim Kərimli tərəfindən aralarında yaranmış mübahisə zəminində Zoyaxanım Rzayevanın xüsusi amansızlıqla qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Kərim Kərimliyə 1 sentyabr 2000-ci il tarixə kimi qüvvədə olmuş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 94-cü maddəsinin 6-cı bəndi (xüsusi amansızlıqla qəsdən adam öldürmə) və hazırda qüvvədə olan Cinayət Məcəlləsinin 178.2.4-cü (xeyli miqdarda ziyan vurmaqla dələduzluq maddəsi ilə yekun ittiham elan edilərək cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

***Seymur Əli***

# Azərbaycan korrupsionerləri üçün "qazax təcrübəsi"

## Bizim oliqarxların da büdcədən oğurlayıb xaricə çıxardıqları pullar geri qaytarıla bilərmi?

***2022-ci ildən bəri Qazaxıstanın hakimiyyət orqanları ölkədən qeyri qanuni çıxarılmış ümumi məbləği 1 trilyon tengedən çox (təxminən 2,3 milyard dollar) olan aktivləri dövlət mülkiyyətinə qaytarıb. "Kazinform agentliyi" xəbər verir ki, bunu Korrupsiyaya Qarşı Mübarizə Agentliyinin sədri Asxat Jumaqali deyib (Bizim.media).***

"Təkcə son 2,5 il ərzində antikorrupsiyaya xidməti cinayət işlərinin istintaqı çərçivəsində 1 trilyon tenge və ya 2,3 milyard dollardan çox vəsaiti geri qaytarıb", - deyə Jumaqali bildirib.

Onun sözlərinə görə, qaytarılan aktivlər arasında pul, daşınan və daşınmaz əmlak, şirkətlərdəki paylar var. Onlar Avstriya, Fransa, Lixtenşteyn, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Rusiya və digər ölkələrdən geri qaytarılıb.




Agentlik xatırladır ki, 2022-ci ilin iyununda Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev ölkə vətəndaşlarının xaricə qanunsuz olaraq çıxardıqları vəsaitlərin geri qaytarılması məqsədilə idarələrarası komissiyanın yaradılması haqqında fərman imzalayıb.

Xatırladaq ki, uzun illərdir Azərbaycanda da vəzifədən uzaqlaşdırılan məmurların mütləq əksəriyyəti barədə korrupsiya, mənimsəmə ittihamları səngimək bilmir. Elə vəzifədə olanda da adları dövlət büdcəsinin talanmasına, vəzifədən, dövlətin gücündən öz maraqlarının təmininə istifadələri haqda danılmaz faktlarla zəngin xəbərlər tirajlanır.

Dövlət nəzarətindən yayınmağı bacaran məmurlar vəzifədə olanda xalqın pulunu, malını çapıb-talayır, mənimsəyir, vəzifəsini itirəndən sonra isə sakitcə ölkədən çıxardığı milyonları, bəzi hallarda isə hətta milyardları öz keflərinə xərcləyir, xarici ölkələrin iqtisadiyyatını ayaqda saxlayırlar. Halbuki oğurlanan, talanan vəsaitlərlə xalqın güzəranını, sosial problemlərini, sağlıq məsələlərini və bir çox çeşidli ictimai işlərin gerçəkləşməsini həyata keçirmək mümkün olardı.

Azərbaycanda belədir: nazir postundan çıxarılandan sonra vəzifədə olduğu illərdə barəsində yayılan korrupsiya-rüşvət ittihamları fakt şəklində araşdırma qovluqlarının "bəzəyinə" çevrilir. Son nəticə isə dəyişmir, əksərən oğurlanaraq ölkədən çıxarılan vəsaitlər geri qaytarılmır.

Bəs bizdə də Qazaxıstan təcrübəsindən faydalanaraq korrupsionerlərin xaricə daşıdıqları pulların geri qaytarılmasına başlana bilərmi? Bəzi ekspertlər bunu mümkün, hətta zəruri hesab edirlər. Onlar bildirirlər ki, Azərbaycanda yüksək vəzifəli məmurların topladıqları var-dövlət, gözqamaşdıran sərvət hələ də zaman-zaman gündəmin əsas müzakirə mövzusuna çevrilir. Mütəxəssislərin fikrincə, bu gün sabiq adlandırılan, bir çoxu korrupsiya əməllərinə görə həbsdə olan şəxslər vəzifədəikən faktiki olaraq oliqarxlaşıblar, tutduqları postdan sui-istifadə edərək varlanıb biznes imperiyası qurublar. "Onlar vəzifəsini itirsə belə öz biznesini idarə etməyə davam edirlər. Qurduqları biznesin "sərhədləri" isə genişdir. Dünyanın əksər ölkələrində gəlir gətirən obyektləri, ticarət mərkəzləri var. Bizneslərinin ilkin qaynağı qaranlıq olsa da, "ilkin kapital"ın korrupsiyadan gələn pullar olduğu şübhəsizdir. Hansısa sabiq nazirin irimiqyaslı ticarət layihələri üçün pulu təmiz yolla qazanması inandırıcı görünmür. Lakin qanunvericiliyə görə, dövlət qulluqçusu, məmur bizneslə məşğul ola bilməz. Digər tərəfdən buna hətta qanun imkan versə belə, həm məsul olduqları sahəyə, həm də biznesə eyni zamanda vaxt çatdırmaq çətindir. Bu halda ictimaiyyəti bir sual düşündürür: korrupsioner məmurları vəzifədən çıxarmaqla, yaxud həbsə atmaqla kifayətlənmək yetərlidirmi? Çoxları ədalətin tam bərpası üçün onların ölkədən qanunsuz olaraq çıxardıqları oğurluq pulların da geri qaytarılmalı olduğunu düşünürlər. Belə fikirləşənlərə haqq qazandırmamaq mümkün deyil.

Bir neçə il öncə mövzu ilə bağlı danışan maliyyəçi professor, sabiq maliyyə naziri Saleh Məmmədov demişdi ki, qanunsuz yollarla əldə olunaraq kənara daşınan vəsaitlərlə bağlı cinayət işi qaldırılmalı, onların Azərbaycan dövlətinə məxsusluğu sübut edilməlidir. Belə pullar Sinqapur, Cənubi Koreya, Yaponiyadan tutmuş İsrailə, Londona, İsveçrəyə qədər bütün dünya ölkələrinə daşınıb, müxtəlif sahələrə yatırılıb. "Dövlətin üzərində olan əsas vəzifə xüsusi komissiya yaradıb o pulların məbləğini müəyyənləşdirmək, onların Azərbaycan xalqından oğurlandığını isbatlamaq üçün fəaliyyətlərə başlamaq olmalıdır. Əldə olunan bütün sübutlar pulların aparıldığı ölkələrin hüquq-mühafizə orqanlarına təqdim edilməlidir. Eyni zamanda xaricə vəsait aparan belə şəxslərlə danışıqlara başlayıb, onlara vəsaitləri könüllü olaraq geri qaytaracaqları təqdirdə həbs olunmayacaqlarına təminat verilməlidir. Buna gedilməyəcəksə, o pullar bütünlüklə əldən çıxacaq" deyə Məmmədov bildirmişdi.

Ümumilikdə isə istər ölkə qanunvericiliyi və beynəlxalq hüquq, istərsə də bir çox ölkələrin təcrübəsi (elə Qazaxıstan nümunəsində olduğu kimi!) Azərbaycan dövlətindən və xalqından oğurlanmış, xaricə daşınmış pulların geri qaytarılması üçün geniş imkanlar açır. Bircə qalır çoxdan gözlənilən bu prosesə start vermək! Ən azından qarabağda genişmiqyaslı quruculuq işlərinin aparıldığı və bunun üçün milyardlarla manatın xərcləndiyi, qarşıdakı dövrdə də xərclənəcəyi bir şəraitdə korrupsionerlərin büdcədən çırpışdırıb xaricdə daşınmaz əmlaka, biznesə, bank hesablarına yatırdıqları pulların büdcəyə qaytarılması xüsusilə mühüm önəm daşıyır...

***Sənan Mirzə***

## 5.3.14. diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Xaricdə yaşayan azərbaycanlı alimlərin həmrəyliyi

## İlqar Orucov: "Diaspor alimləri Azərbaycan elminin, təhsilinin inkişafına cəlb olunaraq onların təcrübəsindən istifadə edilməlidir"

Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq damarlarında azərbaycanlı qanı axan hər kəs Azərbaycanın milli maraqlarının qorunmasında, inkişafında maraqlı olmalıdır. Dünyada yaşayan azərbaycanlıların həmrəyliyi, azərbaycançılıq ideologiyası ətrafında sıx birləşməsi xaricdə güclü Azərbaycan diasporunun yaranmasını təmin edən əsas şərtlərdəndir. Artıq iki gündür ki, dünyanın müxtəlif ölkələrinə səpələnmiş Azərbaycan xalqının intellektual xəzinəsi sayılan alimlər yenidən öz vətənlərinə toplaşıb. Xaricdə yaşayan Azərbaycanlı Alimlərin Forumunda müxtəlif ölkələrdən gəlmiş elm xadimlərinin bir-birləri ilə yaxından tanışlıq mərasimi keçirilib. Mərasim zamanı müxtəlif ixtisaslar üzrə müzakirələr aparılıb, qarşılıqlı maraq doğuran məsələlər, gələcəkdə birgə həyata keçirilməsi mümkün layihələr barədə fikir mübadiləsi olub. Bəs görəsən, xaricdə yaşayan alimlərin Azərbaycanda bir araya gəlməsi ölkəmiz üçün nə vəd edir?

"Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti" İctimai Birliyinin sədri İlqar Orucov "Unikal" qəzetinə müsahibəsində bildirib ki, diaspor alimlərinin Forumun keçirilməsi ölkəmiz üçün çox əhəmiyyətlidir.

"Diaspor alimləri Azərbaycan elminin, Azərbaycan təhsilinin inkişafına cəlb olunaraq onların təcrübəsindən istifadə edilməlidir. Onlar xüsusilə gənc alimlərin yetişməsinə böyük töhvə verə bilərlər", deyə İlqar Orucov bildirib.

İlqar Orucov deyir ki, bu Forumun ölkəmizdə keçirilməsi xaricdə yaşayan azərbaycanlı alimlərin bir-biri ilə əlaqəsi baxımından da vacibdir: " Təəssüf ki, bizim diaspor alimlərinin çoxu zamanında elmimizə rəhbərlik edən şəxslər tərəfindən küsdürülüb. Amma onlar Azərbaycanın intellektual sərvətidir. Onlarla Azərbaycanın əlaqələrinin qurulması təklif olunmalıdır. İllər öncə biz də belə bir Forumun keçirilməsi ilə bağlı dövlətə müraciətlər etmişik. Nüfuzlu diaspor alimləri Azərbaycanla əməkdaşlığa cəlb olunmalıdır. Nə yaxşı ki, gec də olsa belə bir Forum keçirildi. Bu Forumun əhəmiyyətini, faydalarını biz gələcəkdə görəcəyik. Orada qaldırılan məsələlər əməldə reallaşacaq. Alimlərin səyləri nəticəsində Azərbaycan elmi dirçələcək".

İlqar Orucov onu da bildirib ki, cənab prezident də xaricdə yaşayan alimlərin bizim elmin inkişafı üçün səfərbər olunmasının tərəfdarıdır.

"Bu barədə prezidentin Forum iştirakçılarına məktubunda da bildirilir. Xaricdə yaşayan alimlərimizin elmi məktəblərin yaradılması üçün də xaricdə yaşayan azərbaycanlı alimlərin imkanından istifadə edilməlidir. Hansısa əcnəbi alimi elmi mərkəzlərin yaradılmasına cəlb etməkdənsə, xaricdə yaşayan azərbaycanlı alimləri cəlb etmək daha yaxşı olar. Çünki, onlar xaricdə yaşasalar da, azərbaycanlıdırlar,ölkəmizdə elmin inkişafı üçün daha çox iş görə və can yandırarlar".



Qeyd edək ki, Xaricdə yaşayan Azərbaycanlı Alimlərin Forumu Diasporla İş üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin dəstəyi, Dünya Azərbaycanlı Alimlər Dərnəyinin təşkilatçılığı ilə 9-11 sentyabr tarixində keçirilib. Foruma 23 ölkədən 80-dən çox azərbaycanlı alim, ölkəmizin müxtəlif elm ocaqlarında çalışan alim və professorlar, nüfuzlu ali məktəblərin rektorları qatılıb.

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun iştirakçıları Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə müraciət ünvanlayıblar. Alimlərimizin işğaldan azad olunmuş Xankəndinə səfəri zamanı oxunan müraciətdə deyilir:

Hörmətli cənab Prezident!

Dünyanın müxtəlif ölkələrində yaşayıb-çalışan azərbaycanlı alimləri birləşdirən təşkilatımız doğma Vətənimizin yüksəlişlərini daim diqqətlə izləyir, böyük Zəfərə imza atmış dövlətimizin və xalqımızın uğurlarına qəlbən sevinirik. Biz, Vətənimizdən kənarda fəaliyyət göstərsək də, hər zaman və hər yerdə Ulu Öndərimiz Heydər Əliyevin bu möhtəşəm sözlərini xatırlayırıq: "Azərbaycan torpağının hər guşəsi hər bir azərbaycanlı üçün əzizdir". Dünyanın ayrı-ayrı ölkələrində, fərqli elm sahələrində işləyən araşdırıcılarımızı qovuşduran Dünya Azərbaycanlı Alimlər Birliyinin başlıca məqsədi Vətənimizin inkişaf və tərəqqisinə mümkün köməklərimizi göstərməkdir.

Bu gün, Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun son günündə, işğaldan azad edilmiş müqəddəs Azərbaycan torpağı Qarabağda olarkən, qalib xalqımızın və onun müzəffər Ali Baş Komandanının, Vətənimizin müdafiəçisi və xilaskarı qarşısında inanılmaz xoşbəxtlik və qürur hissi keçirdiyimizi Sizə və bütün dünyaya bildirməkdən məmnunluq duyuruq. Torpağımızın hər qarışının azad edilməsi uğrunda xalqımızın çəkdiyi əzabları və verdiyi qurbanları daim xatırlayır, şəhidlərimizə Allahdan rəhmət və qazilərimizə can sağlığı arzulayırıq.

Xarici ölkələrdə yaşayan azərbaycanlı alimlər kimi, Sizi və Sizin şəxsinizdə bütün Azərbaycan xalqını əmin edirik ki, elm və texnologiya, energetika, təhsil, səhiyyə, sosiologiya və mədəniyyət sahələrində Vətənin strateji planlarının hazırlanması və həyata keçirilməsi naminə əzmlə səy göstərəcəyik.

Cənab Prezident! Şanlı silahlı qüvvələrimizin Ali Baş Komandanı olaraq xalqımızı zəfərə qovuşdurduğunuz, torpağımızın ərazi bütövlüyünü bərpa etdiyiniz, vətənimizin tam suverenliyini təmin etdiyiniz üçün daim Sizə minnətdarıq.

Sizin müdrik və uzaqgörən rəhbərliyiniz altında Azərbaycan Respublikasının siyasi, iqtisadi, elmi-mədəni istiqamətdə gələcəkdə daha böyük müvəffəqiyyətlər qazanacağına əminliklə biz də ümumi tərəqqimizə töhfələrimizi verməyə hazırıq. İnanırıq ki, müasir elmi biliklərə və geniş təcrübəyə malik olan, vətənimizi dərin məhəbbətlə sevən və siyasi xəttinizi daim dəstəkləyən ziyalılarımız ümummilli mənası olan böyük işlərdə Sizin yardımçınıza çevrilə biləcəkdir.

Bu gün, Xankəndidə hər birimiz, ulu öndərimizin bu ölməz sözlərini sevinc göz yaşları ilə bir daha təkrar edirik: "Mən fəxr edirəm ki, azərbaycanlıyam. Mən fəxr edirəm ki, Azərbaycan mənim doğma torpağımdır. Mən fəxr edirəm ki, belə bir millətim var!".

Məlumat üçün bildirək ki, Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Bakıda keçirilən Forumunun iştirakçıları Xankəndi və Şuşa şəhərlərinə səfər ediblər. Xankəndi şəhəri ilə yaxından tanış olan soydaşlarımız daha sonra Qarabağ Universitetinin rektoru və kollektivi ilə görüşüblər. Universitetin rektoru Şahin Bayramov xaricdə yaşayan alimlərimizin Qarabağa səfərini yüksək qiymətləndirib, universitetin fəaliyyəti, müasir standartlara uyğunlaşdırılması barədə məlumat verib, gələcək planlardan danışıb. Xaricdə yaşayan alimlərlə Qarabağ Universiteti arasında elmi əməkdaşlığın qurulması, onların bilik və təcrübələrindən də istifadə olunması imkanları barədə fikir mübadiləsi aparıblar. Xankəndi şəhərində xaricdə yaşayan azərbaycanlı alimlərin Prezident İlham Əliyevə müraciəti səsləndirilib.Xaricdə Yaşayan Azərbaycanlı Alimlər Forumunun iştirakçıları bundan sonra Şuşaya yola düşüblər. Soydaşlarımız Şuşada aparılan yenidənqurma işləri ilə tanış olub, mədəniyyət paytaxtımızın tarixi məkanlarına baş çəkiblər. Azərbaycanlı alimlər forumun öz işini Qarabağda davam etdirməsini və burada yekunlaşdırmasını tarixi hadisə adlandırıb, ölkəmizin gələcəyi naminə bundan sonra da əllərindən gələni əsirgəməyəcəklərini, dünya elmi ilə Azərbaycan elmi arasında daha möhkəm körpülərin qurulmasına töhfələr verəcəklərini deyiblər. Xaricdə yaşayan azərbaycanlı alimlər Qarabağ Universitetinin rəhbər heyəti ilə görüşün onlar üçün əvəzolunmaz xoşbəxtlik olduğunu, yaddaşlarında silinməz izlər qoyduğunu, bu səfərin mahiyyətini daha da dərinləşdirdiyini vurğulayıblar.

Xatırladaq ki, Ümummilli lider Heydər Əliyev dünyada yaşayan azərbaycanlıları həmişə həmrəy olmağa və azərbaycançılıq ideologiyası ətrafında birləşməyə çağırış edirdi. O, bütün xarici səfərlər zaman həmin ölkədə yaşayan bir qrup azərbaycanlı ilə görüşür, məsləhət və tövsiyələrini çatdırırdı.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Azərbaycanda kibertəhlükəsizlik günləri keçirilir

***Bakıda "Yaşıl iqtisadiyyat naminə kibertəhlükəsizlik" mövzusuna həsr olunmuş konfrans işinə başlayıb.***

"PROSOL" şirkətinin ev sahibliyi ilə həyata keçirilən tədbir çərçivəsində Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) tərəfindən "CTF - Capture the Flag" kibertəhlükəsizlik müsabiqəsi təşkil olunub.

"Unikal" xəbər verir ki, konfransın açılış mərasimində XRİTDX-nın rəis müavini general-mayor Allahverən İsmayılov çıxış edib. O qeyd edib ki, ölkəmiz beynəlxalq səviyyəli Kibertəhlükəsizlik İndeksinin reytinq cədvəlində 36 pillə irəliləyərək 86-cı yerdən 50-ci yerə yüksəlib. Rəis müavini XRİTDX mütəmadi olaraq dövlət qurumlarının informasiya sistemlərini audit və monitorinq etməklə onların informasiya təhlükəsizliyinin vəziyyətini operativ olaraq qiymətləndirdiyini vurğulayıb. Eləcə də, A. İsmayılov qeyd edib ki, bir neçə gündən sonra XRİTDX və Rumıniya Respublikasının Kiberdiplomatiya Mərkəzinin birgə təşkilatçılığı ilə regionda ilk dəfə "Kiberdiplomatiya" mövzusuna həsr olunmuş beynəlxalq konfrans həyata keçiriləcək.

"Yaşıl iqtisadiyyat naminə kibertəhlükəsizlik" mövzusuna həsr olunmuş konfrans çərçivəsində kibertəhlükəsizlik sahəsində son trendlərə və çağırışlara dair fikir mübadiləsi aparılacaq, panel müzakirələri və "CTF - Capture the Flag" kibertəhlükəsizlik müsabiqəsi həyata keçiriləcəkdir. Panel müzakirələrində Azərbaycanın dövlət və özəl sektorunun nümayəndləri, kibermütəxəssislər, eləcə də ABŞ, Türkiyə, İsrail, Polşa, Ukrayna, Fransa, Qazaxıstan, Xorvatiya, Pakistan kimi ölkələrdən nümayəndələr iştirak edəcəklər.

XRİTDX tərəfindən təşkil olunmuş "CTF - Capture the Flag" kibertəhlükəsizlik müsabiqəsində dövlət və özəl qurumlarından ibarət olan 20 kiberkomanda 3 yer uğrunda mübarizə aparacaq.

# Antiterror əməliyyatının ildönümüdür

**Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən bir il ötür.**

"Unikal" xəbər verir ki, lokal xarakterli antiterror tədbirlərindən bir neçə ay əvvəl Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Azərbaycan Ordusunun mövqelərinin müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutulması, ərazilərimizin minalanmasının davam etdirilməsi, döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsi, eləcə də səngər və sığınacaqların sayının artırılması gərginliyin artmasına səbəb olub.

Bu xüsusda, döyüş mövqelərinin şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və digər atəş vasitələri ilə gücləndirilməsi, bölmələrin yüksək döyüşə hazırolma səviyyəsinə gətirilməsi, səfərbərlik üzrə əlavə bölmələrin yaradılması, Azərbaycan Ordusunun bölmələrinə qarşı kəşfiyyat fəaliyyətlərinin genişləndirilməsi, mövqelərimizin dərinliyinə sızaraq minalardan təmizlənmiş ərazilərin və mülki təyinatlı yolların terror-təxribat məqsədilə yenidən minalanması kimi əməllər tərəfimizdən aparılan müşahidələrlə təsbit edilib.

Sentyabrın 19-da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsi sıradan çıxmış və mülki şəxslər həlak olub. Həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçularımız həlak olub və yaralanıb.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi dəfələrlə bəyan edirdi ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir.

Üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə sentyabrın 19-da bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.

Tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılıb.

Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı mülki əhali və mülki infrastruktur obyektləri hədəfə alınmayıb.

Silah-sursatı tükənən Ermənistan silahlı qüvvələri birləşmələrinin hərbi qulluqçuları pərakəndə şəkildə təşviş içində döyüş mövqelərini tərk ediblər.



2023-cü il sentyabrın 20-də saat 13:00-da aşağıdakı şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub:

1. Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.

2. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

3. Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir.

Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.

Prezident İlham Əliyevin xalqa müraciətində bəyan edib ki, 19 sentyabr 2023-cü il tarixində təxminən saat 13:00 radələrində antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa edib.

"Qeyd etməliyəm ki, antiterror tədbirləri nəticəsində bizim hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərmişlər. Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz bir daha qeyd etdiyim kimi, qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır.

Əməliyyat başlamazdan əvvəl mənim tərəfimdən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilmişdir ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır. Biz həm yüksək dəqiqliyə malik silahlardan istifadə edərək buna nail olduq, eyni zamanda, Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etmişlər. Eyni zamanda, göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir zərbə dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır. Bir daha demək istəyirəm ki, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir.

Bir daha qeyd etmək istəyirəm ki, aparılmış qısamüddətli lokal xarakterli antiterror tədbirləri nəticəsində, düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarılmışdır", - Azərbaycan Prezidenti çıxışında qeyd edib.

Təəssüf ki, antiterror tədbirləri zamanı şəhidlərimiz olub. Lokal antiterror tədbirləri zamanı Azərbaycan Ordusunun 192 hərbçisi şəhid olub.

Azərbaycanın Qarabağ bölgəsində əraziyə baxış zamanı içərisində xeyli sayda müxtəlif təyinatlı mina və kustar üsullarla hazırlanmış əldəqayırma partlayıcı qurğularla dolu anbarlar Ordumuzun mühəndis-istehkam bölmələri tərəfindən aşkar edilib. Aşkar edilmiş anbarlarda mövcud minaların bir qisminin 2021-ci ildə Ermənistanda istehsal olunduğu, əldəqayırma partlayıcı qurğuların isə artilleriya mərmilərindən kustar üsullarla hazırlandığı müəyyən edilib.

Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra müsadirə edilmiş döyüş texnikası, silah və sursat barədə oktyabrın 2-si saat 18:00-a olan məlumata görə, atıcı silahlar (2608), qumbaraatanlar (235), top və haubitsalar (60), minaatanlar (64), tank əleyhinə silahlar (58), HHM silahları (165), zirehli texnika (31), avtomobil texnikası (265) qoşqular (23), yardımçı texnika (9), raketlər (1700), top və haubitsa mərmiləri (5177) zenit top mərmiləri (31771), minaatan mərmiləri (12806), qumbaralar (5880), əl qumbaraları (3068), patronlar (2009970) digər sursatlar (5778), optik cihazlar (314), digər cihazlar (38), fərdi təchizat vasitələri (1027), müxtəlif silahların qurğuları (15) və digər təchizat vasitələri (3323) aşkarlanıb.

2023-cü il sentyabrın 28-də Azərbaycanın Qarabağ bölgəsindəki qondarma qurum özünü buraxdığını elan edib. Bu barədə qondarma quruma rəhbərlik etmiş Samvel Şahramanyan qərar verib. Qərara əsasən, qondarma rejimin bütün qurumları və təşkilatları 2024-cü il yanvarın 1-dən fəaliyyətini tam dayandırır. Bununla da "Dağlıq Qarabağ respublikası" öz mövcudluğuna son verib.

Bundan başqa Azərbaycanın hüquq-mühafizə orqanları Qarabağda qondarma qurumun "prezidentləri" olmuş Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, sabiq "xarici işlər naziri" David Babayan, eləcə də "parlament sədri" David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan və keçmiş "dövlət naziri" Ruben Vardanyanı həbs edərək Bakıya gətirib.

Eyni zamanada, Azərbaycan Respublikası Qarabağ bölgəsindəki yaşayan erməni sakinlərin reinteqrasiyası ilə bağlı əməli fəaliyyətə başlayıb.

Qeyd edilib ki, reinteqrasiya Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi çərçivəsində Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və beynəlxalq öhdəlikləri əsasında həyata keçirilir.

Etnik, dini və ya dil mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə, o cümlədən hər kəsin təhlükəsizliyinə təminat verilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Ağdərə şəhərində, Xocalı şəhərində, Xocalı rayonunun Əsgəran qəsəbəsində, Sərsəng su anbarının ərazisində və Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Həmin tarixdə dövlət başçısı İlham Əliyev Xankəndidə çıxış edib. Prezident bildirib ki, bu gün tarixi bir gündür.

"Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik", - Azərbaycan Prezidenti vurğulayıb.

Onu da qeyd edək ki, 2023-cü il noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev paradda iştirak ediblər.

Antiterror tədbirlərinin məntiqi nəticəsi olaraq Türkiyə Respublikası ilə Rusiya Federasiyası arasında imzalanan Memoranduma əsasən, Qarabağ bölgəsində atəşkəs rejiminə nəzarət etmək və qanun pozuntularının qarşısının alınması məqsədi ilə 2021-ci il yanvarın 30-da Azərbaycanın Ağdam şəhərində yaradılan 2024-cü il aprelin 26-dan etibarən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi fəaliyyətini dayandırıb.

Rusiya Sülhməramlı Kontingenti isə Azərbaycanı tam tərk edib.

Prezident İlham Əliyevin ötən gün imzaladığı Sərəncama əsasən, 20 sentyabr - Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü kimi qeyd olacaq.

33_27 IYUl-QARA.qxd 9/19/2024 10:03 PM Page 14



# Şəhid Musanın hünər dastanı



***Musa Əlifağa oğlu Əsgərov İkinci Qarabağ müharibəsində canını Vətənə fəda etməklə qərinələr boyunca gələcək nəsillərə örnək olacaq bir tarix yazıb. O, doğma Azərbaycana ürəkdən bağlanmışdı, hər qarışını çox sevirdi. Onu mübarizə meydanında yağı düşmənin kabusuna çevirən də bu ilahi istək olub. Vətənin yaşaması naminə son damla qanına qədər vuruşub şəhadətə yüksəlib.***

Özü ömrünün ən gözəl çağında- 23 yaşında əbədiyyət dünyasına qovuşsa da, adı bizim üçün bütöv bir Azərbaycan qoyan qəhrəman Vətən övladlarının cərgəsində fəxrlə, iftixarla çəkilir. Şəhid Musa indi təkcə doğulduğu Cəlilabad rayonunun Sabirabad kəndinin deyil, böyük bir xalqın qürur yeridir. Dövlət tərəfindən layiq görüldüyü "Vətən uğrunda", "İgidliyə görə" və digər medalları isə Musanın odun-alovun içində necə hünər göstərdiyinə bir nişanədir.

Canına yağı dadanmış yurdunun taleyi Musanı uşaq yaşlarında narahat edib. Məhz buna görə Vətən naminə hərbiçi olmağa qərar verib. Dərslərini yaxşı oxumaqla bərabər, idman yarışlarında da həmişə fərqlənib. 2014-cü ildən isə Heydər Əliyev adına Ali Hərbi Akademiyaya daxil olub, 2018-ci ildə oranı fərqlənmə ilə başa vurub.

Musa gənc leytenant rütbəsində Xüsusi Təyinatli Qüvvələrin tərkibində hərbi xidmətə düşmənə ən yaxın mövqelərdən - Qazaxdan başlayıb. Xidməti boyunca öz Vətənini göz bəbəyi kimi qoruyub, iştirak etdiyi təlimlərdə bir qaydı olaraq nizam-intizamı, peşəkarlığı həmişə ona uğur qazandırıb. Böyük komandirlərin verdiyi tapşırıqları dəqiq, vaxtında yerinə yetirib, həmçinin tabeliyində olan əsgərləri təmiz ürəkli, vicdanlı, qeyrətli bir komandir olmaqla onun hörmətini uca tutublar. Musa baş leytenant rütbəsinə yüksəlib.

Ürəyi həmişə düşmən işğalında olan Vətən torpaqları azad edib zəfərlə evə dönmək arzusu ilə döyünən baş leytenant Musa Əsgərov sentyabrın 27-də başlayan əks-hücüm əməliyyatlarında düşmənin kabusuna çevrilib.

Murov dağ yüksəkliyi istiqamətində erməni dığaların 30 il müddətində qurduğu onlarla pusqu və maneələri dağıdaraq hədəfə yaxınlaşıb. O, Cəbrayıl, Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə böyük rəşadət göstərib. Neçə-neçə ağır sınaqlarda yağıya qan udduran Musa 27 oktyabr 2020-ci ildə Xocavənd rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan artilleriya mərmisinin partlayışı nəticəsində aldığı çox saylı qəlpələrdən şəhid olub. Və bu şərəfli ölümü ilə Vətən sevgisinin müqəddəsliyini bir daha nümayiş edib.

Şəhid anası Sevda xanım deyir ki, Musa Vətəni hər şeydən üstün bilirdi. Onun yolunda şəhid olmağı özünə şərəf sayırdı. Arzusuna çatdı, mən də şəhid anasıyam. Onunla qürur duyuram. Ölümündən sonra qardaşının oğlu dünyaya gəldi. Onu da Musa kimi böyüdəcəyəm, Musanın oxuduğu məktəbləri oxuyacaq, onun kimi cəsur hərbçi olacaq.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# 2024-cü ilin 6 ayında Ağdaşda əsas kapitala yönəldilmiş investisiyalar artıb

***2024-cü ilin yanvar-iyun aylarında bütün maliyyə mənbələrindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala 26 milyon 587,3 min manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,7 dəfə çox vəsait yönəldilmişdir. Ümumi vəsaitin 23 milyon 5,5 min manatı və ya 86,5 faizi dövlət, 3 milyon 581,8 min manatı və ya 13,5 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.***

Əsas kapitala yönəldilmiş vəsaitlərin 21 milyon 558,2 min manatı və ya 81,1 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə, 5 milyon 29,1 min manatı və ya 18,9 faizi isə maşın-avadanlıqların və digər əsas vəsaitlərin alınmasına sərf olunmuşdur. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin 19 milyon 601,0 min manatı və ya 90,9 faizi dövlət, 1 milyon 957,2 min manatı və ya 9,1 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür. 2024-cü ilin yanvar-iyun aylarında tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsait əvvəlki ilin müvafiq dövrü ilə




müqayisədə 2,9 dəfə artmışdır. Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiya hesabına görülmüş tikinti-quraşdırma işləri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 88,6 dəfə artmış, yerli imkanlar hesabına görülmüş tikinti-quraşdırma işləri isə 73,1 faiz azalmışdır.

## Təkrar əkinlər

Artıq bir neçə ildir ki, iqtisadi cəhətdən səmərəli olduğundan ölkəmizdə məhsul yığımından sonra təkrar əkinlərin aparılması ənənələri genişlənmişdir.

Son illərdə Ağdaş rayonunda da təkrar əkinlərə maraq artmışdır. Bu il rayonda taxıl biçini başa çatmış ərazilərdə 1 min 428,7 hektar sahədə təkrar əkinlər aparılmışdır. Bunun da 797,7 hektarı və ya 55,8 faizi əhali təsərrüfatlarının, 631 hektarı və ya 44,2 faizi isə kənd təsərrüfatı müəssisələrinin payına düşmüşdür. Rayonda təkrar əkinlər üçün əsasən qarğıdalı və çəltik bitkisinə üstünlük verilmişdir. Belə ki, təkrar əkinlərin 730,9 hektarını qarğıdalı, 598,1 hektarını çəltik, 55,0 hektarını darı, 44,7 hektarını isə tərəvəz bitkilərinin əkin sahələri təşkil etmişdir.

***Ağdaş Rayon Statistika İdarəsi***

# Bu insanların infarkt və insult keçirmə riski daha azdır



***Araşdırmalar nəticəsində sahib olduqları ilə xoşbəxt olan insanların infarkt və ya insult keçirmə ehtimalının daha az olduğu müəyyən edilib.***

"Unikal" xəbər verir ki, bu barədə araşdırmanın nəticələri "Journal of the American Heart Association" jurnalında dərc olunub.

Mütəxəssislər insanların əqli və emosional rifahının yaxşılaşdırılmasının ürək xəstəliyi və insultun qarşısının alınmasının ayrılmaz hissəsi hesab ediblər.

Tədqiqatçılar araşdırma üçün 120 000-dən çox iştirakçının məlumatlarını təhlil ediblər. İştirakçılar ailə, dostluq, sağlamlıq, maliyyə və ümumi xoşbəxtlik baxımından onların rifahını qiymətləndirən anketləri doldurublar. Tədqiqatçılar insanların rifahını dörd əsas ürək-damar xəstəliyinə tutulma riski ilə əlaqəsini müəyyən ediblər.

Nəticələr göstərib ki, sahib olduqları ilə xoşbəxt olan insanların arteriya tıxanması riski 44%, insult riski 45%, ürək çatışmazlığı riski 51% azalır.

***Zərifə Nağıyeva***

# Cinayətdə şübhəli bilinən 31 nəfər saxlanıldı

***Sentyabrın 18-də ölkə ərazisində qeydə alınan 40, əvvəlki dövrlərdən bağlı qalan 9 cinayətin açılması polis əməkdaşları tərəfindən təmin olunub.***

DİN-in Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 167, o cümlədən borclu şəxs qismində axtarışda olan 129 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqəli 17, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 13 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 31 nəfər saxlanılıb.

# 8 tüfəng polisə könüllü təhvil verildi



***Polis əməkdaşları qanunsuz saxlanılan odlu silahların könüllü təhvil verilməsi ilə bağlı profilaktik tədbirləri davam etdirir.***

"Unikal" xəbər verir ki, sentyabrın 18-də polis əməkdaşları paytaxt və respublikanın ayrı-ayrı rayonlarında 8 ədəd müxtəlif markalı tüfəng təhvil götürüblər.

# Goranboy rayonu üzrə taxıl biçini

***Goranboy rayonunda dənli və dənli paxlalı bitkilərin kütləvi biçini artıq başa çatıb.***

2024-cü il avqust ayının 20-nə olan operativ məlumata əsasən payızlıq və yazlıq dənli və dənli paxlalı (qarğıdalısız) bitkilər üzrə biçilməsi nəzərdə tutulmuş 23343,0 hektar sahə biçilərək məhsul yığılmışdır. Sahələrdən 77384,5 ton məhsul toplanmış, məhsuldarlıq 33,2 sentnerə bərabər olmuşdur. Arpanın məhsuldarlığı 33,0 sentner, buğdanın məhsuldarlığı 33,5 sentner, digər dənli və dənli paxlalı bitkilərin məhsuldarlığı isə 27,4 sentner olmuşdur. Məhsulun 25325,0 tonunu və yaxud 32,7 faizini buğda, 51936,4 tonunu (67,1 faizini) arpa, 123,1 tonunu (0,2 faizini) isə digər dənli və dənli paxlalı bitkiçilik məhsulları təşkil etmişdir.

| Göstəricinin adı | Əkin sahəsi, hektar | Yığılmış məhsul, ton | Məhsuldarlıq, sen/ha |
|---|---|---|---|
| Buğda | 7559,7 | 25325,0 | 33,5 |
| Arpa | 15738,3 | 51936,4 | 33,0 |
| Digər dənli və dənli paxlalı bitkilər | 45,0 | 123,1 | 27,4 |

***Goranboy Rayon Statistika İdarəsi***

33_27 IYUl-QARA.qxd 9/19/2024 10:03 PM Page 15



# NATO Rusiya ilə sərhəddə forpost yaradır



***Şimali Atlantika Alyansı Murmansk vilayəti və Kareliya Respublikası ilə sərhəddə forpost yaratmağa çalışır.***

"Unikal" Rusiya KİV-ə istinadən xəbər verir ki, Finlandiyanın ərazisi NATO ilə Rusiya Federasiyası arasında bufer zona hesab olunur. Lakin 2023-cü ilin aprelində respublika hərbi bloka qoşulub, bundan sonra Helsinki və Vaşinqton müdafiə sahəsində əməkdaşlıq haqqında saziş imzalayıblar.

"Finlandiya sürətlə hərbiləşir, alyansın Arktikada əsas forpostuna və Rusiya sərhədlərində sərhədə çevrilir", - KİV bildirib.

Müşahidəçilər qeyd ediblər ki, bu ilin avqustunda NATO rəhbərliyi Finlandiyada beş min nəfərə qədər zirehli briqada yerləşdirmək qərarına gəlib. Hərbçilər Rusiya-Finlandiya sərhədindən cəmi 100 km aralıda yerləşən Mikkeli şəhərinə göndəriləcək.

Üstəlik, hazırda Finlandiyanın Laplandiya əyalətində Şimali Atlantika Alyansının yeni hərbi bazasının tikintisi aparılır. O, Kareliya və Murmansk vilayətinin yaxınlığında yerləşəcək.

***Gülayə Mecid***

# "Paşinyan Rusiyaya birmənalı şəkildə meydan oxuyur" - Zatulin

***Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyaya birmənalı şəkildə meydan oxuyur.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Dövlət Dumasının MDB işləri üzrə komitə sədrinin birinci müavini Konstantin Zatulin deyib.

O, ötən gün Paşinyanın KTMT-nin Ermənistanın təhlükəsizliyinə, gələcək mövcudluğuna, suverenliyinə və dövlətçiliyinə təhdid olması ilə bağlı açıqlamasına münasibət bildirib.

Deputatın sözlərinə görə, Paşinyan demək olar ki, eyni sözləri illər əvvəl, heç kimin onu ??ciddi siyasətçi hesab etmədiyi zaman demişdi: "O, marjinal jurnalist idi və o vaxt da təkid edirdi ki, Ermənistan Rusiyaya diqqət yetirməyi dayandırsın, KTMT-dən çıxsın, Gümrü bazasını ləğv etsin və s. Onu müxalifətçi kimi az adam dinləyib. Onun 2018-ci ildə baş nazir postuna gəlişi qısa müddət ərzində yalançı dostluq vədləri ilə müşayiət olundu və indi o, öz mahiyyətinə qayıdıb".

Siyasətçinin fikrincə, Moskva müzakirənin səviyyəsini aşağı salmamaq üçün Paşinyana eyni tonda cavab verməməyə üstünlük verir: "Amma biz başımızı quma basdırmamalıyıq, başa düşməliyik ki, Paşinyan Ermənistanı hara aparır... O, açıq şəkildə Rusiyaya qarşı çıxır, Ermənistanda və Qafqazda təsirini minimuma endirməyə çalışır. Düşmənlər bunu edir, xüsusən də biz hərbi əməliyyatlar aparanda, Qərblə üz-üzə gələndə və s... Biz Paşinyan hakimiyyəti və onun xarakteri ilə bağlı daxili nəticə çıxarmalıyıq, vəssalam".

***Ağarza Elçinoğlu***

# Pentaqon İsraildən qorxur - KİV

***İsrail Livanda genişmiqyaslı müharibəyə başlaya bilər.***

"Unikal" "The Wall Street Journal" nəşrinə istinadən xəbər verir ki, ABŞ-nin müdafiə naziri Lloyd Ostin Pentaqonun digər yüksək rütbəli rəsmiləri ilə görüşdə belə narahatlığını bölüşüb.

Ostinin düşüncələrinə Livanda çoxsaylı peycer partlayışları ilə bağlı hadisələr səbəb olub. Amerika təhlükəsizlik departamentinin nümayəndələrinin proqnozlarına görə, onlar İsrail hərbçilərinin daha genişmiqyaslı hərəkətlərinə başlamaq üçün siqnal ola bilər.

Həmçinin, bəzi mənbələr İsrail ordusunun daha əvvəl Qəzzada fəaliyyət göstərən hərbi qulluqçulardan ibarət bütöv bir diviziyanı ölkənin şimalından cənuba köçürdüyünü bildirir. Onun sayı minlərlə döyüşçüdür.

İsrail hakimiyyəti artıq Hizbullaha xəbərdarlıq edib ki, əgər o, qoşunlarını Livanın cənubundan çıxarmasa, qarşıdurmada yeni mərhələ başlayacaq.

***Gülayə Mecid***

# "3-cü Dünya Müharibəsinin qarşısını ala bilərik" - BMT-nin baş katibi

***Birləşmiş Millətlər Təşkilatının (BMT) baş katibi Antonio Quterreşbeynəlxalq ictimaiyyətin Qəzza üçün kifayət qədər səy göstərmədiyini bildirib.***

"Unikal" xəbər verir ki, o, bu barədə mətbuat konfransında danışıb. Quterreş beynəlxalq ictimaiyyəti Qəzzada müharibəni mümkün qədər tez bitirmək üçün daha çox təzyiq göstərməyə çağırıb. Qəzzada öldürülən BMT əməkdaşlarına toxunan Quterreş humanitar yardım işçilərinin qorunmalı olduğunu bildirib.



BMT baş katibi planetin 3-cü Dünya Müharibəsinin astanasında olub-olmadığına da münasibət bildirib:"Əlbəttə, 3-cü Dünya Müharibəsinin qarşısını ala bilərik. Mübahisə və qarşıdurmalarda böyük artım müşahidə edirik".

***Gülayə Mecid***

# Paşinyanı devirməyə çalışanlardan biri hərbi birləşmə lideri imiş

***Xəbər verdiyimiz kimi, Ermənistanda hakimiyyəti ələ keçirməyə çalışan dəstə həbs edilib.***

"Unikal" erməni KİV-ə istinadən xəbər verir ki, həbs edilənlərdən biri "Qara Pantera" hərbi birləşməsinin lideri Serob Qasparyandır.

O, 44 günlük müharibədə iştirak edib. Daha sonra Qarabağdan Ermənistana qaçıb.

Bundan əvvəl qeyd olunub ki, Milli Təhlükəsizlik Xidməti tərəfindən həyata keçirilən əməliyyat-istintaq tədbirləri nəticəsində bir qrup şəxsin qabaqcadan razılaşdırılaraq hakimiyyəti ələ keçirməyə hazırlaşması barədə məlumat daxil olub.

Qarabağ erməniləri və Ermənistan vətəndaşları ayda 220 min rubla işə götürülərək yeni silahlarla tanış olmaq və onlardan istifadəni öyrənmək üçün Rusiyaya göndərilirdilər.



Sözügedən əməli törətdiklərinə görə 7 nəfər barəsində cinayət işi başlanıb. Onlardan 3-ü həbs edilib, 4-ü isə axtarışa verilib.

***Ağarza Elçinoğlu***

# Türkiyə ordusu İraqda hava əməliyyatı keçirdi - Terrorçular məhv edildi

***Türkiyə Milli Müdafiə Nazirliyi (MSB) İraqın şimalında hava əməliyyatı keçirib.***

"Unikal" xəbər verir ki, MSB-nin İraqın şimalında Hakurk, Qara, Qəndil və Asos bölgələrində keçirdiyi hava əməliyyatında terrorçuların olduğu mağara, sığınacaq və anbarlardan ibarət 24 hədəf məhv edilib.

Türkiyə Milli Kəşfiyyat Təşkilatı terror təşkilatı PKK/KCK-nın Gare hərbi kəşfiyyatçılarından olan



"Hogir Pirosi" kod adlı Halil Yiğiti İraqın Qara bölgəsində həyata keçirdiyi əməliyyatla zərərsizləşdirib.

Bu barədə MİT məlumat yayıb. MİT-in apardığı kəşfiyyat araşdırmaları nəticəsində PKK/KCK üzvü Halil Yiğitin təşkilatın yüksək səviyyəli idarəçilərinin göstərişi əsasında Qarada Türkiyə təhlükəsizlik qüvvələrinə qarşı aksiyalar təşkil etdiyi müəyyən edilib.

***Gülayə Mecid***

# "Qarabağın Azərbaycanın bir hissəsi kimi tanınması Ermənistanın qələbəsi hesab edilir" - Şahramanyan

***Qarabağın Azərbaycanın bir hissəsi kimi tanınması Ermənistanın qələbəsi hesab edilir.***

"Unikal" xəbər verir ki, bu barədə Qarabağda yaradılmış separatçı rejimin sonuncu lideri Samvel Şahramanyan deyib.

O, bu barədə Ermənistan hakimiyyətinin bəyanatlarından təəssüfləndiyini qeyd edib: "Qarabağın Azərbaycanın bir hissəsi kimi tanınmasını Ermənistanın qələbəsi hesab edən yüksək vəzifəli məmurlar var. Mən bu cür ifadələri eşitdiyimə görə təəssüflənirəm. O məmurlar bizim Ermənistanda qonaq olduğumuzu hesab edir. Er-



mənistan hökumətinin bütün üzvlərinin və xalqın belə düşündüyünə böyük şübhəm var. O adamlara deyəcək sözüm yoxdur".

***Ağarza Elçinoğlu***

# Zelenski Harris və Trampla görüşəcək

***ABŞ-nin vitse-prezidenti və prezidentliyə namizəd Kamala Harris gələn həftə Vaşinqtonda Ukrayna lideri Volodimir Zelenski ilə görüşməyi planlaşdırır.***

"Unikal" xəbər verir ki, bu barədə "Bloomberg" nəşri öz mənbələrinə istinadən məlumat yayıb.

Nəşr vurğulayır ki, Ukrayna lideri ştatlara səfəri zamanı Ukraynanın NATO və Avropa İttifaqına üzvlüyündə israr edəcək.

Bundan əlavə, Zelenski iqtisadiyyat və təhlükəsizliklə bağlı sazişlər bağlayacaq, həmçinin Qələbə Planı çərçivəsində Ukrayna Silahlı Qüvvələri üçün silah təchizatını müzakirə edəcək.

O, həmçinin planlarını keçmiş prezident və Harrisin seçkidəki rəqibi Donald Trampla da bölüşəcək.

***Gülayə Mecid***

33_27 IYUl-QARA.qxd 9/19/2024 10:04 PM Page 16



# "Qarabağ" - "Neftçi" matçının baş hakimi müəyyənləşdi



***Azərbaycan Premyer Liqasının VII turunda keçiriləcək "Qarabağ" - "Neftçi" matçının baş hakimi müəyyənləşib.***

"Unikal" AFFA-nın mətbuat xidmətinə istinadən xəbər verir ki, turun mərkəzi qarşılaşmasını FIFA referisi Əliyar Ağayev idarə edəcək.

Oyunlar sentyabrın 20-22-də keçiriləcək.

**Azərbaycan Premyer Liqası**
**VII tur**
**20 sentyabr**

17:00. "Kəpəz" - "Şamaxı"
Hakimlər: Cavid Cəlilov, Müslüm Əliyev, Kamran Bayramov, Nicat İsmayıllı.
VAR: Rauf Cabarov.
AVAR: Vüsal Məmmədov.
Hakim-inspektor: Asim Xudiyev.
AFFA nümayəndəsi: Bəhram Qurbanov.

**Tovuz şəhər stadionu**

20:00. "Qarabağ" - "Neftçi"
Hakimlər: Əliyar Ağayev, Zeynal Zeynalov, Akif Əmirəli, Əli Əliyev.
VAR: İnqilab Məmmədov.
AVAR: Namik Hüseynov.
Hakim-inspektor: Ramil Diniyev.
AFFA nümayəndəsi: Zaur Hacı-Məhərrəmov.
Azərsun Arena

**21 sentyabr**

18:00. "Turan Tovuz" - "Araz-Naxçıvan"
Hakimlər: Elçin Məsiyev, Elşad Abdullayev, Pərvin Talıbov, Tural Qurbanov.
VAR: Rauf Allahverdiyev.
AVAR: Rəhman İmami.
Hakim-inspektor: Babək Quliyev.
AFFA nümayəndəsi: Elçin Mehdiyev.

**Tovuz şəhər stadionu**
**22 sentyabr**

18:00. "Səbail" - "Sabah"
Hakimlər: Kamal Umudlu, Vüsal Məmmədov, Eyyub İbrahimov, Kamran Əliyev.
VAR: Fərid Hacıyev.
AVAR: Şirmamed Mamedov.
Hakim-inspektor: Rəhim Həsənov.
AFFA nümayəndəsi: Elçin Məmmədov.

**ASCO Arena**

20:30. "Sumqayıt" - "Zirə"
Hakimlər: İnqilab Məmmədov, Namik Hüseynov, Rahil Ramazanov, Əkbər Əhmədov.
VAR: Rəşad Əhmədov.
AVAR: Teymur Teymurov.
Hakim-inspektor: Orxan Məmmədov.
AFFA nümayəndəsi: Elgiz Abbasov.
Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionu.

# Azərbaycan milliləri İtaliya yığmaları ilə üz-üzə gələcəklər

***Azərbaycanın kişilərdən və qadınlardan ibarət milliləri Macarıstanın paytaxtı Budapeştdə təşkil olunan 45-ci Ümumdünya Şahmat Olimpiadasında İtaliya yığmaları ilə üz-üzə gələcəklər.***



"Unikal" xəbər verir ki, qarşılaşmalar VIII tura təsadüf edəcək. Kişilərdən ibarət kollektiv 10 xalla 14-cü pillədə qərarlaşıb. Lider Hindistanın 14, ikinci sıradakı İranın 13, Özbəkistanın isə 12 xalı var.

Qadınlar isə 10 xalla 19-cudur. Hindistan 14 xalla liderdir. Polşa və Qazaxıstan 12 xala malikdir.

Qeyd edək ki, kişi şahmatçılarımız daha əvvəl Monteneqro (3:1), İordaniya (3,5:0,5), Finlandiya (3,5:0,5), Moldova (3:1) və Qazaxıstanı (3:1) məğlub edib, Hindistan (1:3) ilə Litvaya (1,5:2,5) uduzub.

Qadınlardan ibarət komandamız isə Sloveniya (3:1), Nikaraqua (4:0), Avstraliya (3:1) və Vyetnamdan (2,5:1,5) üstün olub, Argentina, Ukrayna ilə heç-heçə edib - 2:2, Qazaxıstana isə yenilib - 1:3.

# Qara Qarayev "Neftçi"dən getdi



***"Neftçi" futbolçusu Qara Qarayevlə yollarını ayırıb.***

"Unikal" AZƏRTAC-a istinadən xəbər verir ki, "ağ-qaralar" Azərbaycan millisinin sabiq yarımmüdafiəçisi ilə əməkdaşlığa son qoyub. Onunla müqaviləyə qarşılıqlı razılıq əsasında xitam verilib.

Q.Qarayev paytaxt klubuna 2023-cü ilin yayında "Qarabağ"dan keçmişdi. O, ötən ay baş məşqçi Roman Qriqorçukun qərarı ilə əvəzedici komandaya göndərilmişdi.

Qeyd edək ki, "Neftçi" Misli Premyer Liqasında 6 turdan sonra topladığı 4 xalla turnir cədvəlinin 9-cu pilləsində qərarlaşıb.

# Elxan Məmmədov FIFA-da yeni vəzifəyə təyin olundu

***FIFA-nın Avropa Milli Assosiasiyaları Departamentinin direktoru Elxan Məmmədov yeni vəzifəyə təyin olunub.***



"Unikal" qurumun mətbuat xidmətinə istinadən xəbər verir ki, O, FIFA-da Üzv Assosiasiyaların direktoru vəzifəsinə təyin edilib.

AFFA-nın sabiq icraçı vitse-prezidentinin müavini isə Gelson Fernandes olub.

Qeyd edək ki, E.Məmmədov noyabrın 1-dən etibarən yeni vəzifəsinin icrasına başlayacaq.

# "Tottenhem" növbəti mərhələdə



***"Qarabağ"ın Avropa Liqasının Liqa mərhələsindəki rəqibi "Tottenhem" İngiltərə kubokunda 3-cü tur oyununa çıxıb.***

"Unikal" xəbər verir ki, London təmsilçisi səfərdə "Koventri" ilə qarşılaşıb. Matç qonaq komandanın 2:1 hesablı qələbəsi ilə başa çatıb.

"Koventri" - "Tottenhem" - 1:2

Qollar: Tomas-Asante, 63, Spense, 88 (1:1), Yonson, 90+2 (1:2)

Bu qələbə ilə "Tottenhem" növbəti mərhələyə yüksəlib.

Qeyd edək ki, "Qarabağ"ın "Tottenhem"lə oyunu sentyabrın 26-da Londonda keçiriləcək.

# İtaliyalı mütəxəssis "Əl-Nəsr"in baş məşqçisi oldu

***Kriştiano Ronaldonun çıxış etdiyi "Əl-Nəsr"in yeni baş məşqçisinin adına aydınlıq gəlib.***



"Unikal" xəbər verir ki, komandaya Stefani Pioli başçılıq edəcək.

58 yaşlı mütəxəssis ötən mövsümün sonunda "Milan"dan ayrılıb. O, 2022-ci ildə "rossonoyerlilər"ə İtaliya çempionu titulunu qazandırıb.

Qeyd edək ki, "Əl-Nəsr" dünən portuqaliyalı mütəxəssis Luiş Kaştra ilə yollarını ayırıb. Komanda Səudiyyə Ərəbistanı Liqasında 3 turdan sonra 5 xalla 7-ci pillədə qərarlaşıb.

# Semih Şentürk "Fənərbaxça"dan ayrıldı



***"Fənərbaxça"nın 19 yaşadək futbolçulardan ibarət komandasının baş məşqçisi Semih Şentürk istefa verib.***

QOL.az xəbər verir ki, bu barədə 41 yaşlı mütəxəssis özü sosial şəbəkə hesabında açıqlama yayıb.

Türkiyə millisinin sabiq hücunmçusu 2023-cü ilin yayından U-19-a rəhbərlik edirdi.

Qeyd edək ki, futbolçu kimi 2001-2013-cü illərdə "Fənərbağça"da çıxış edən Semih 205 matçda 56 qol vurub.